www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 fevral 2018-ci il Cümə axşamı № 30 (6919) Qiymәti 60 qəpik

**Xəbər**

## Evlənmək istəyən 1349 nəfərdə sifilis, 293 nəfərdə isə QİÇS aşkarlandı

yazısı səh.14-də

**Gündəm**

## Növbədənkənar prezident seçkisində "Qarabağ izi"...



Yerli və əcnəbi analitiklər seçkidən sonra müharibənin alovlana biləcəyini istisna etmirlər; **rusiyalı ekspert:** "Aprel-iyul münaqişənin taleyində həlledici ola bilər..."

yazısı səh.7-də

## Rusiyada yeni diaspor təşkilatımızla bağlı xoş xəbər - martda qurultay gözlənilir

yazısı səh.12-də

## Sərdar Cəlaloğlu seçki üçün sponsor axtarır

yazısı səh.6-da

## Seçkidən sonra hakimiyyət komandasında olmayacaq məmurlar

yazısı səh.5-də

## Kreml "Milli Şura proyekti"ni işə sala bilərmi...

yazısı səh.7-də

## Azərbaycan iqtisadi azadlıq indeksində 67-ci oldu

yazısı səh.9-da

## İŞİD İraq və Suriyada yenidən fəallaşır

yazısı səh.14-də

## Amerika "ikinci Putin siyahısı"nı açıqlaya bilər

yazısı səh.9-da

## Dünya tarixində inqilab kimi hadisə - Marsa raket göndərildi

yazısı səh.13-də

## Üç ömürlük OMON-çu məhbus azadlığa çıxa bilərmi...

yazısı səh.10-da

## Bir otaqda oturub, dünyanı silkələyən adam - Assancın son durumu

yazısı səh.13-də

# RUSİYADAN İRƏVANA HƏDƏ KİMİ İSMARIŞ - SƏRKİSYANA SEÇKİ ZƏRBƏSİ

"Nezavisimaya qazeta" İrəvanda Hitlerin əlaltısına qoyulan abidəyə görə hakim rejimi hədəfə aldı; **Rusiyanın nüfuzlu nəşri:** "Erməni cəlladının əli on minlərlə günahsız rusun qanına batıb", "Ermənistanda faşizm rəsmi ideologiyaya çevrilir"; işğalçının "can dostu" İrandan isə Bakıya haqsız mesaj gəldi - "İsraillə yaxınlıq edənlər..."

yazısı səh.8-də



## "Gərək Rəsul Quliyev kimilərinə vəzifə verilməyəydi" - İsgəndər Həmidov

Eks-spikerin AXC iqtidarına ittihamlarına sərt reaksiya

yazısı səh.4-də



## Yavər Camalovun zavodlarında 4 ildə 4 partlayış

yazısı səh.12-də



*Əkrəm Həsənov:*

## "Əhalinin kreditləşdirilməsi insanları daha da kasıblaşdırdı"

yazısı səh.5-də



*Novella Cəfəroğlu:*

## "Seçkiyə qədər əksər siyasi məhbuslar azadlığa çıxacaq"

yazısı səh.3-də



## Prezident həmsədrlərlə razılığa gəldi: seçkidən sonra nələr olacaq?

**Azərbaycana səfər əsnasında prezident İlham Əliyev tərəfindən qəbul edilən ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə aparılan müzakirələrin detalları məlum olub.**

Musavat.com-un məlumatına görə, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib ki, səfər çərçivəsində Krakov görüşündə irəli sürülən fikirlər əsasında ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar konkret müzakirələr aparılıb.

Razılıq əldə olunub ki, Ermənistan və Azərbaycanda keçiriləcək prezident seçkilərindən sonra mövcud fikir və təkliflər əsasında intensiv danışıqlar davam etdirilsin.

İşğala və təcavüzə məruz qalan ölkə kimi Azərbaycan münaqişənin substantiv və məntiqi danışıqlar vasitəsilə tezliklə həlli istiqamətində olan səyləri dəstəkləyir. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin dövlət başçıları səviyyəsində dəfələrlə bəyan etdiyi kimi, işğala əsaslanan mövcud status-kvo qəbuledilməz və qeyri-davamlıdır. Status-kvo dəyişdirilməlidir.

Status-kvonun dəyişdirilməsi üçün BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində tələb olunduğu kimi Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılması təmin olunmalıdır.

## Qida Təhlükəsizliyi Agentliyində 5 şöbə yaradıldı




**"Hazırda Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələrinin struktur və maddi-texniki bazasının formalaşdırılması, laboratoriyaların təhvil-təslim işləri həyata keçirilir".**

Bu barədə "Report"un sorğusuna cavab olaraq Qida Təhlükəsizliyi Agentliyinin Kommunikasiya və informasiya texnologiyaları şöbəsindən bildirilib.

Qeyd olunub ki, agentlik hazırda Səhiyyə Nazirliyinin inzibati binasında müvəqqəti yerləşir: "Bu məsələnin həlli istiqamətində Əmlak Məsələləri Dövlət Komitəsi Agentlik ilə sıx əməkdaşlıq edir və inzibati bina qısa müddətdə müəyyənləşdiriləcək".

Qida Təhlükəsizliyi Agentliyi Aparatının strukturu təsdiq olunub. Regional bölmələrin, o cümlədən Bakı şəhərinin strukturu, Qida Təhlükəsizliyi İnstitutunun Nizamnaməsi təsdiq olunma mərhələsindədir. "Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq Təftiş və dövlət nəzarəti şöbəsi, Risklərin idarə olunması şöbəsi, Sertifikatlaşdırma və qeydiyyat şöbəsi, İnsan resursları şöbəsi, Kommunikasiya və informasiya texnologiyaları şöbəsi, Maliyyə və təsərrüfat şöbəsi, Hüquq şöbəsi fəaliyyət göstərəcək.

Qida Təhlükəsizliyi Agentliyinin Əsasnaməsində göstərildiyi kimi, agentlik qida təhlükəsizliyi sertifikatı verəcək, həmçinin qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərini qeydiyyata alacaq və reyestrini aparacaq. Bu istiqamətdə agentliyin fəaliyyətini təmin etmək məqsədilə qanunvericilikdə müəyyən dəyişikliklər hazırlanır və uyğunlaşmalar aparılır, o cümlədən müvafiq strukturlardan tələb olunan maddi-texniki bazanın təhvil-təslim işləri həyata keçirilir. Hazırda isə bu işləri İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi davam etdirir.

Qida Təhlükəsizliyi Agentliyinin qarşısına qoyduğu əsas vəzifə Azərbaycan vətəndaşlarının təhlükəsiz qida məhsulu əldə etməsini təmin etməkdir. Bu proses sahibkarlara ziyan vermədən (bürokratik əngəllər yaratmadan), kiçik və orta sahibkarın da iştirakı ilə həyata keçiriləcək. Qida Təhlükəsizliyi Agentliyi bu prosesi mərhələli şəkildə həyata keçirməyi, bu sahədə vətəndaş məsuliyyətini artıracaq yöndə işlər görməyi planlaşdırır", - deyə, agentlikdən bildirilib.


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Mübariz İbrahimov məzarı başında anıldı







**Fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov doğum günündə məzarı başında anılıb. Ad günü münasibətilə şəhidin məzarı ziyarət olunub.**

Azvision.az xəbər verir ki, II Fəxri Xiyabanda keçirilən anım mərasimində şəhidin ailə üzvləri, yaxınları, eləcə də paytaxt sakinləri iştirak ediblər. Onlar M.İbrahimovun ruhuna dualar oxuyub, məzarı önünə gül dəstələri qoyublar.

❑ **Musavat.com**




## MSK-ya ilk iddiaçı ərizəsi göndərildi

AĞ Partiyanın sədri Tural Abbaslının 11 apreldə keçiriləcək prezident seçkilərində namizədliyinin irəli sürülməsi barədə sənədləri fevralın 7-də Mərkəzi Seçki Komissiyasına təqdim edilib.

Bu barədə AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli musavat.com-a məlumat verib.

O bildirib ki, namizədliyin irəli sürülməsi yanvarın 7-dən başlayıb: "Ona görə də Tural Abbaslının prezidentliyə namizədliyinin irəli sürməsi barədə ərizəsini və digər lazımi sənədləri MSK-ya göndərdik. Qanunun tələbinə görə, bundan sonra namizədə imza vərəqələri verilməlidir. Beləliklə, seçkilərdə MSK-ya namizədliyi üçün ilk müraciət edən Tural Abbaslı oldu".

Qeyd edək ki, prezidentliyə namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin MSK-ya təqdim edilməsi fevralın 27-dən martın 12-dək davam edəcək.

Növbədənkənar prezident seçkilərində prezidentliyə namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərini MSK-ya təqdim edilməsi səsvermə gününə ən çox 50 gün, ən azı 30 gün qalanadək, yəni 2018-ci il 27 fevraldan 12 mart saat 18.00-dək davam edəcək.

❑ **E.SEYİDAĞA**
**Musavat.com**

## Şəhid anası dəfn edildi



**20 Yanvar hadisəsinin simvollarından biri, İlham-Fərizə ailəsinə ağır itki üz verib, İlham Allahverdiyevin anası Ofeliya xanım vəfat edib.**

Şəhid anası fevralın 7-də dəfn olunub.

Qaziler.az bildirir ki, dəfndə millət vəkili Aydın Mirzəzadə, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmət Çağırış üzrə Dövlət Xidmətinin mərkəzi aparatının nümayəndələri, Qarabağ Qazilər İctimai Birliyinin, 20 Yanvar Cəmiyyətinin, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin, Azərbaycanın Milli Qəhrəmanı Fred Asif adına Milli Qəhrəmanları İnkişaf Fondunun nümayəndələri, "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı və digər ictimaiyyət nümayəndələri iştirak edib.

Qeyd edək ki, mərhumun üç, yeddi mərasimi cümə günü, fevral ayının 9-da Yeni Yasamalda keçiriləcək.

## 17 il həbs cəzası alan azərbaycanlı kriminal avtoritet Bakıya gətirildi



**Kriminal aləmdə "Gəncəli Firdovsi" kimi tanınan Firdovsi Mustafayevin cinayət işi üzrə məhkəmə başa çatıb. Lent.az-ın məlumatına görə, Gəncə Ağır Cinayətlər Məhkəməsində hakim Faiq Mahmudovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hakimlər kollegiyasının hökmünə əsasən, Firdovsi Mustafayev 17 il müddətinə azadlıqdan məhrum edilib. Hökmlə razılaşmayan "Gəncəli Firdovsi" apelyasiya şikayəti verib.**

Bir neçə gün əvvəl isə Firdovsi Mustafayev Gəncədə yerləşən Penitensiar Xidmətin İstintaq Təcridxanasından Bakıda yerləşən vərəmli məhkumların saxlandığı İxtisaslaşdırılmış Müalicə Müəssisəsinə gətirilib.

Xatırladaq ki, bir müddət əvvəl "Gəncəli Firdovsi" ilə Şəmkir rayonundan olan "Yetim Sabir" kimi tanınan avtoritet arasında həbsxanada vəziyyətə nəzarət etmək üstündə mübahisə yarandığı haqda məlumatlar yayılmışdı. Firdovsi "Yetim Sabir"ə hazırda Türkiyədə olduğu qeyd edilən "Lotu Quli" kimi tanınan Nadir Səlifovu oğru kimi tanımadığını bildirmişdi. Bundan sonra tərəflər arasında ciddi mübahisə yaranmışdı. Daha sonra mətbuatda "Yetim Sabir"in bıçaqlandığı haqda məlumatlar getmişdi. Bu əməlin Firdovsi Mustafayev tərəfdən törədildiyi bildirilmişdi.

## Moskvada Azərbaycan pomidoru - kilosu 5 manata

**Rusiyanın "AB-Mərkəz" aqrobiznes analitik-ekspert qrupunun mütəxəssisləri kartof və tərəvəzlər bazarının növbəti həftəlik icmalını hazırlayıb. Ekspert qrupunun araşdırmasına görə, Azərbaycandan Rusiyaya idxal olunan pomidorun qiymətində ay ərzində 8,1 faiz azalma olub.**

Virtualaz.org Rusiya mətbuatına istinadən xəbər verir ki, yanvar ayının 26-da monitorinqə başlanılıb və həmin vaxt Azərbaycandan idxal olunan çəhrayı pomidorların bir kiloqramının qiyməti 150-190 rubl (4.46 - 5.64 manat) təşkil edib. Bu qiymət əsasən orta və ya böyük ölçülü pomidorlara aiddir. Bazarlarda pomidorun orta qiyməti isə 170 rubl olub (5.05 manat). Monitorinq aparılan həftədə pomidorun qiymətində 1,5 faiz artım olub, bir ay ərzində isə 8,1 faiz azalıb.

Qırmızı sulu Azərbaycan pomidorları isə orta hesabla 177.5 rubla (5.27 manat) satılıb. Bir həftə ərzində 5,3 faiz, ay ərzində isə 12,3 faiz azalma baş verib.

Hazırda Bakı bazarlarında pomidorun 1 kiloqramının qiyməti 1.5 manatdan 4-5 manat arasında dəyişir.



## İsa Qəmbər ABŞ dövlət katibi müavininin köməkçisi ilə görüşüb

**Milli Strateji Düşüncə Mərkəzinin sədri, Müsavat Partiyasının prezidentliyə namizədi İsa Qəmbər ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin köməkçisi Bricet Brinklə görüşüb. Bu haqda Basta saytı məlumat yayıb.**

Sayt Müsavat Partiyasının mətbuat xidmətinə əsasən yazır ki, görüşdə Azərbaycan-ABŞ əlaqələri, bir sıra regional proseslər müzakirə edilib: "İsa Qəmbər Azərbaycanın qarşılaşdığı daxili və xarici problemlər haqda danışıb, Qarabağın işğalı, demokratiya, siyasi və iqtisadi azadlıqların boğulması, siyasi məhbus məsələsi və digər problemlərin səbəbləri və həlli yolları barədə fikirlərini bildirib. Xanım Brink öz növbəsində ABŞ-ın Azərbaycanla münasibətlərə hərtərəfli yanaşdığını, o cümlədən demokratiya və insan haqları məsələsinə ciddi önəm verdiyini söyləyib.

Görüş zamanı əsas müzakirə edilən mövzulardan biri də Azərbaycanda 2018-ci il oktyabr ayında keçirilməsi nəzərdə tutulan prezident seçkisinin 6 ay irəli çəkilməsinin və 11 aprelə təyin edilməsinin səbəbləri və mümkün nəticələri olub".

ABŞ səfirliyində keçirilən görüşdə səfir Robert Sekuta da iştirak edib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 39 (6919) 8 fevral 2018

**Türkiyə ordusu Suriyanın Afrin rayonunda PYD/YPG terror təşkilatına qarşı əməliyyatları davam etdirir. Yanvarın 20-dən başlayan əməliyyat nəticəsində artıq 1000-dən çox terrorçu məhv edilib, bir neçə kənd azad edilib. Dünyada bu əməliyyata münasibət birmənalı deyil, bəzi ölkələr Türkiyəni dəstəkləsələr də, qarşı çıxanlar da var.**

# Azərbaycan Afrinə sülhməramlı göndərə bilər

## Ekspertlər bunu istisna etmir, hüquqi əsas və təcrübə var; politoloq **Toğrul İsmayıl:** "Hüquqi baxımdan bunun üçün maneə yoxdur"

Ancaq Azərbaycan hər zaman olduğu kimi, bu məsələdə də Türkiyənin haqlı mövqeyini həm rəsmi səviyyədə, həm də ictimai rəy səviyyəsində dəstəkləyir. "Zeytun budağı" əməliyyatının ilk günlərində Azərbaycan paytaxtında yerləşən Türkiyə səfirliyi qarşısında bir sıra ictimai təşkilatlar dəstək aksiyaları keçirib, Türkiyə xalqının yanında olduqlarını bəyan ediblər. Hətta ehtiyac olarsa könüllü olaraq hərbi əməliyyata qoşulmaq istəyənlər də olub.

Bəs bunu reallaşdırmaq necə, mümkündürmü? Söhbət Azərbaycan ordusunun Suriyanın şimalında antiterror və sülhyaratma əməliyyatlarında Türkiyə ordusu ilə birlikdə iştirakından gedir. Məsələ ondadır ki, Azərbaycan ordusu dəfələrlə Türkiyə ordusu ilə birlikdə hərbi təlimlərdə iştirak edib, ordular arasında koordinasiya və əməliyyat uyğunluğu sınaqdan keçirilib. İkinci tərəfdən, Azərbaycan ordusu artıq 20 ildən çoxdur ki, BMT missiyası və beynəlxalq antiterror koalisiyası tərkibində dünyanın bir neçə qaynar nöqtəsində xidmət edib.

Azərbaycan Silahlı Qüvvələri tərkibində Sülhməramlı ordusu *(2001-ci ildən Birləşmə adı alıb - K.R.)* 1997-ci ildə yaradılıb. 2001-ci ildə isə sülhməramlı taboru yaradılıb. Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasında qeyd olunur ki, "NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək" Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur.

Göründüyü kimi, Azərbaycan ordusu yerli qanunvericiliyə əsasən xarici ölkələrdə əməliyyat hüququ var və artıq uzun illərdir bu missiyanı uğurla yerinə yetirir. 1999-cu il oktyabrın 20-də Azərbaycan və Türkiyə arasında Kosovo Türk Taboru qüvvələri tərkibində Kosovoda xidmət etməsi ilə bağlı saziş imzalanıb. Sazişə 1999-cu ilin sentyabrından 2008-ci ilin mart ayınadək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı taqımı 34 nəfər şəxsi heyətlə -32 əsgər, 1 gizir və 1



zabit olmaqla, Kosovoda sülhün yaradılması və dəstəklənməsi üzrə (KFOR) əməliyyatlarda iştirak edib. Azərbaycan taqımı, Türkiyə taborunun (qərargahı Draqaş şəhərində) 4-cü mexanikləşdirilmiş piyada bölüyünün tərkibində Draqaş şəhərində xidmət aparıb. Taqım Brod yaşayış məntəqəsinin 18 kəndində növbə çəkib, bölgənin sabitliyi və təhlükəsizliyinə birbaşa cavabdeh olub.

İraq ABŞ ordusu tərəfindən işğal edildikdən sonra Azərbaycan ordusu bu ölkədə sabitliyin yaradılmasında iştirak edib. BMT-nin Təhlükəsizlik Şurası tərəfindən 2003-cü ildə qəbul edilmiş qərar əsasında Azərbaycan Sülhməramlı bölüyü 2003-cü il avqustun 15-dən 2008-ci il dekabrın 7-nə qədər 151 nəfər şəxsi heyətlə *(120 nəfər əsgər, 16 nəfər gizir, 15 nəfər zabit)* İraqda Beynəlxalq Koalisiya Qüvvələri tərkibində fəaliyyət göstərib. Hərbçilərimiz İraqın Əl-Həditə şəhəri yaxınlığında ABŞ Dəniz Piyadaları Komandanlığının tərkibində ən böyük su anbarının və çox güclü su elektrik stansiyasının mühafizəsini həyata keçirib.

Əfqanıstanda təhlükəsizliyin dəstəklənməsi ilə bağlı Azərbaycan və Türkiyə arasında 2002-ci il noyabrın 11-də imzalanmış sazişə əsasən Azərbaycan tağımı beynəlxalq missiyalı Türk taborunun tərkibində fəaliyyət göstərməyə başlayıb. Azərbaycan Silahlı Qüvvələrinin 22 nəfərlik sülhməramlı tağımı 2002-ci il noyabr ayının 20-dən Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) tərkibində fəaliyyət göstərməyə başlayıb. 2008-ci il yanvarın 15-dən Azərbaycanın Əfqanıstandakı sülhməramlı kontingentinin sayı artırılaraq bölük səviyyəsinə çatdırılıb. 2009-cu il fevralın 19-dan etibarən Azərbaycan Respublikası SQ-nin 90 nəfər sülhməramlı kontingenti Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) əməliyyatlarında Türkiyə taboru tərkibində fəaliyyət göstərir. Bölüyün şəxsi heyəti Kabil şəhərində yerləşən televiziya qülləsini, İSAF-ın mərkəzi silah-sursat anbarının təhlükəsizliyini qoruyur və patrul xidmətini həyata keçirirdi.

Hazırda Azərbaycan sülhməramlıları Əfqanıstan İslam Respublikasında NATO-nun həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyası çərçivəsində Həmid Kərzai adına Kabul Beynəlxalq Hava Limanının (HİKA) təhlükəsizliyini təmin edir və bu missiyanı uğurla yerinə yetirirlər.

Bəs mütəxəssislər nə deyir? Azərbaycan ordusunun sülhyaratma missiyası olaraq Afrin və Suriyanın şimalındakı terrordan azad edilmiş bölgəyə göndərilə bilərmi? Yuxarıda da qeyd olunduğu kimi, Azərbaycan ordusunun bu yöndə artıq 20 illik təcrübəsi var. Dünyanın 3 ən gərgin münaqişə bölgəsində ordumuz sülhyaratma missiyasında iştirak edib. Bu missiyanın ikisində Türkiyə ordusu ilə birlikdə fəaliyyət göstərib. Yəni həm müvafiq hüquqi baza, həm də praktik təcrübə var. Qalır bunu reallaşdırmaq.

**Ankarada yaşayan azərbaycanlı alim, TOBB Universitetinin müəllimi, beynəlxalq məsələlər üzrə mütəxəssis Toğrul İsmayıl deyir ki, hüquqi baxımdan bu məsələdə maneə yoxdur. Ancaq ekspertin fikrincə, bu məsələdə mane olan bir neçə faktor var:** "Prinsip etibarı ilə hüquqi baxımdan bunun üçün maneə yoxdur. Əgər Türkiyə dövləti istərsə, Azərbaycan bu kampaniyada iştirak edə, qardaş ölkə kimi dəstəyini verə bilər. Sadəcə, bu məsələ ilə bağlı bir neçə önəmli nüans var. Birincisi, hərbi yardım Türkiyənin hərbi cəhətdən zəif olduğu, kənardan dəstəyə ehtiyac duyması görüntüsünü yarada bilər. Bu isə Türkiyə üçün əlverişsizdir. Çünki Türkiyənin bu əməliyyatı başa çatdırmaq üçün imkanları yetərincədir. Bu cür kənardan yardım istənilməsi dövlətin imicinə zərbə ola bilər. Bu səbəbdən də indi Türkiyə hakimiyyəti kənardan hərbi yardımdan daha çox mənəvi-psixoloji və diplomatik dəstəyə ehtiyac duyur. Azərbaycandakı humanitar, sosial qurumların dəstəyi, təbliğatı daha çox fayda verə bilər. Yəni hərbi dəstəkdən daha çox mənəvi-psixoloji dəstək daha çox önəmlidir. Həm də hərbi əməliyyatda başqa dövlətin ordusunun qatılması əməliyyat çətinliyi yarada bilər".

Ancaq T.İsmayıl istisna etmir ki, əməliyyatın növbəti mərhələsində, xüsusən də azad edilmiş bölgələrdə sülhü qorumaq üçün beynəlxalq missiya qurularsa, Azərbaycan Türkiyənin ən yaxın dostu və müttəfiq ölkə olaraq bu prosesdə iştirak edə bilər. Ancaq bunun üçün ilk növbədə əməliyyatın birinci mərhələsinin yekunlaşması və eyni zamanda beynəlxalq səviyyədə Suriyada sülhü qoruma missiyasının yaradılması haqda qərarın verilməsi lazımdır.

Azərbaycan ordusunun birbaşa Türkiyə ordusu ilə birgə əməliyyata qatılmasına gəlincə, T.İsmayıl bunun daha çox siyasi vəziyyətə və dövlət rəhbərlərinin qəbul edəcəyi qərarlara bağlı olacağını düşünür.

Qeyd edək ki, söhbət etdiyimiz digər hərbi və beynəlxalq siyasət üzrə ekspertlər deyir ki, hazırkı şərtlərdə bu layihənin baş tutması üçün bir sıra maneələr var. O cümlədən regional amillər, beynəlxalq aləmdəki vəziyyət, münaqişə bölgəsində maraqlı güclərin reaksiyası da daxil olmaqla, bir sıra "yan təsirlər" nəzərə alınmalıdır. Ancaq Ankaranın bu əməliyyatı beynəlxalq antiterror fəaliyyəti kimi tanıdacağı təqdirdə Azərbaycanın bu prosesə qatılması, Türkiyə ordusu ilə birlikdə Suriyanın şimalında atəşkəsə nəzarət bölgəsində xidmət etməsi mümkündür. Çünki Astana anlaşması da Türkiyənin Suriyanın şimalında sülhyaratma missiyası həyata keçirməsinə əsas verir. Digər tərəfdən, Afrin və daha əvvəl azad edilmiş Azez-Cerablus xəttində sülhü mühafizə, qaçqınların terrordan qorunması üçün müttəfiq ölkələrin Türkiyəyə hərbi yardım etməsi hüquqi baxımdan mümkündür. Sadəcə, bunun müvafiq mexanizmi hazırlanmalıdır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
❑ **"Yeni Müsavat"**



# "Seçkiyə qədər əksər siyasi məhbuslar azadlığa çıxacaq"

## Novella Cəfəroğlu: "Həm əfv fərmanı veriləcək, həm də amnistiya"

**Prezident seçkilərinin nəzərdə tutulduğu vaxtdan öncəyə təyin edilməsi siyasi məhbus və əfv mövzusunu da gündəmə gətirdi. Məlumdur ki, beynəlxalq təşkilatlar və yerli ictimai qurumlar tərəfindən tələblər, tövsiyələr səslənir. Bundan başqa, seçki kampaniyası başlayanda bu istiqamətdə bir qədər yumşalma özünü göstərir.**

Mart ayına kimi əfv verilməsi gözlənilirmi? Əfv Komissiyasının növbədənkənar iclasları keçirilirmi?

Yanvar ayında Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası bir neçə dəfə keçirilib. İclasda əfvlə bağlı müraciətlərə baxılıb. Yanvar ayında da mətbuatda mütəmadi məlumatlar yayılırdı ki, iclasların keçirilməsi Novruz bayramı ərəfəsində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən növbəti əfv sərəncamının imzalanması ilə bağlıdır. Ümumilikdə isə indiyədək komissiyaya 1000-dək müraciət daxil olub. Komissiya isə bu müraciətlərin hər birini təhlil edib.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda növbəti əfv sərəncamının imzalanması ilə yanaşı, böyük amnistiya aktının verilməsi gözlənilir. Onun dediyinə görə, növbəti əfv sərəncamı və amnistiya aktı ilə daha çox məhbus azadlığa çıxacaq:** "Əksər siyasi məhbuslar da azadlığa çıxacaq. Çünki bu il üçün ən mühüm məsələ budur. Əfv və amnistiya Novruz bayramı və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsi üçün əlamətdar olacaq".

N.Cəfəroğlu dedi ki, hazırda Əfv Komissiyasının iclasları gedir. Müsahibimizin fikrincə, bütün tanınmış siyasi məhbuslar da əfv fərmanı və amnistiya sayəsində azadlıqlarına qovuşacaqlar.

❑ **SEVİNC**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30(6919) 8 fevral 2018

# Qüds müsəlman gənclərinin paytaxtı oldu

## Fələstində "Qüds - İslam Dünyası Gənclər Paytaxtı" layihəsinin açılış mərasimi keçirilib; Fələstin prezidentindən Azərbaycana böyük jest





**Fevralın 6-da axşam Fələstinin mərkəzi Ramallah şəhərində "Qüds - İslam Dünyası Gənclər Paytaxtı" beynəlxalq proqramının təntənəli açılış mərasimi baş tutub. Təşkilatın yaydığı məlumat-açıqlamada qeyd olunur ki, İslam Əməkdaşlığı Təşkilatı (İƏT) Gənclər Forumunun təşəbbüsü ilə həyata keçirilən proqramın açılış tədbirində, İsrail tərəfindən törədilən bəzi süni maneələrə baxmayaraq, 10-u nazir olmaqla, 30-dan artıq İƏT ölkəsinin rəsmi nümayəndəsi iştirak edib. Açılış mərasimində eyni zamanda "Gənclər Paytaxtı" proqramının 14 İƏT üzv ölkəsinin dövlət başçılarından ibarət Qəyyumlar Şurasının yaradıldığı elan edilib və şuranın ilk işçi iclası keçirilib.**

Fələstin dövlət başçısının iqamətgahında keçirilən açılış mərasimini Fələstinin gənclər və idman naziri Cibril Racub və İƏT Gənclər Forumunun sədri Elşad İskəndərov elan ediblər. Proqramın rəsmi təşkilatçısı olan İƏT GF-nin sədri Elşad İskəndərov deyib ki, Qüdsün islami kimliyinin hədəfə alındığı bir vaxtda, müsəlmanların ilk qibləsi olan bu şəhərin "Gənclər Paytaxtı" elan edilməsi əməldə İslam həmrəyliyinə töhfədir. E.İskəndərov, İƏT ölkələrini bu işdə əməldə həmrəylik nümayiş etdirməyə dəvət edib.

Açılış mərasimində çıxış edən Fələstin dövlət rəhbəri Mahmud Abbas layihənin əsas müəllifi olan, Azərbaycan və Türkiyə hökumətlərinin təşəbbüsü ilə təsis olunmuş İƏT Gənclər Forumunun fəaliyyətini yüksək qiymətləndirib. M.Abbas bu il Bakı şəhərində keçiriləcək İƏT Gənclər və İdman Nazirlərinin növbəti sessiyasında "Qüds - Gənclər Paytaxtı" proqramına üzv ölkələrin daha yüksək səviyyədə dəstək verəcəyinə ümid etdiyini bildirib.

Tədbirdə iştirak edən Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov çıxışında keçən ilin prezident İlham Əliyev tərəfindən ölkəmizdə İslam Həmrəyliyi ili elan olunduğu, bu istiqamətdə keçirilmiş tədbirlər haqda məlumat verib, Azərbaycanın bu istiqamətdə siyasətini bundan sonra da davam etdirəcəyini qeyd edib, Qüds - İƏT Gənclər Paytaxtı proqramının uğurla həyata keçməsi üçün Azərbaycanın lazımi dəstək verəcəyini bildirib.

Açılış mərasimində həmçinin Türkiyə, İordaniya, Küveyt, Qatar, Pakistan, Bəhreyn, Mərakeş kimi ölkələrin gənclər və idman nazirləri çıxış edib, eləcə də Türkiyə prezidenti R.T.Ərdoğanın və İƏT-in baş katibi Yusif Əl-Useyminin tədbir iştirakçılarına ünvanlanmış təbrik məktubları oxunub.

Açılış mərasimi çərçivəsində Fələstin tarixində ilk dəfə, İƏT Gənclər Forumunun təşəbbüsü ilə, gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirəcək və milli dialoqa dəstək olacaq Fələstin Gənclərinin Milli Şurasının yaradıldığı elan olunub.

Bundan başqa, açılış mərasimində Mahmud Abbas İƏT Gənclər Forumu sədri səfir Elşad İskəndərovu Fələstinin ali dövlət nişanı olan "Qüds Ulduzu" ordeni ilə təltif edib. M.Abbas müsəlmanların ilk qibləsi olan Qüdsün adına verilən ordenin E.İskəndərova Qüdsün beynəlxalq statusunun qorunması və "Qüds - İslam Dünyası Gənclər Paytaxtı" proqramının müxtəlif çətinliklərə rəğmən həyata keçirilməsində xidmətilərinə görə təltif edildyini vurğulayıb.

Təltifetmə mərasimi zamanı M.Abbasa təşəkkür edən E.İskəndərov bu qiymətin Azərbaycan dövlətinin təşəbbüsü ilə yaranan və prezident İlham Əliyevin İslam həmrəyliyinin gücləndirilməsi kursuna uyğun həyata keçirilən beynəlxalq fəaliyyətdə İƏT Gənclər Forumunun bütün əməkdaşlarının zəhmətlərinə verilən yüksək qiymət adlandırıb.

Xatırladaq ki, "İslam Dünyası Gənclər Paytaxtı" beynəlxalq proqramı İƏT Gənclər Forumunun təşəbbüsü və koordinasiyası ilə ilk dəfə 2015-ci ildən həyata keçirilməyə başlayıb. 2016-cı ildə İstanbul, 2017-ci ildə isə Malayziyanın Putracaya, Mərakeşin Fəs və İranın Şiraz şəhərləri İslam dünyası "gənclər paytaxtı" elan olunub. 2018-ci il Qüds şəhəri "İslam Dünyası Gənclər Paytaxtı" elan edilib. ABŞ, İsrail və onun müsəlman ölkələrindəki lobbi qrupları son ana qədər layihənin baş tutmasına mane olmağa çalışıblar. Ancaq bütün cəhdlərə baxmayaraq layihə baş tutub.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yenì Müsavat"**

# Rəsul Quliyevin AXC iqtidarına ittihamlarına sərt reaksiya

## İsgəndər Həmidov: "Gərək onun kimilərinə vəzifə verilməyəydi"

**Amerikada mühacir həyatı yaşayan sabiq spiker Rəsul Quliyevin jurnalist Emin Hüseynova verdiyi müsahibədən sonra onunla Xalq Cəbhəsi hakimiyyətinin təmsilçiləri arasında yaranan qarşıdurma səngimək bilmir. Hər iki tərəf bir-birilərinin ünvanına nəinki ən sərt ittihamlar yağdırır, hətta ən ağır formada təhqirlər səsləndirirlər.**



Son olaraq, sabiq spiker ovqat.com-a müsahibəsində narazılıqları daha da alovlandırıb. O, AXC hakimiyyətinin ünvanına növbəti sərt ittihamlarını dilə gətirib. Geniş müsahibənin əsas diqqətçəkən yerləri bunlardır: "Elçibəyin komandasında ən az olmuş (20 günə yaxın) adam mənəm. Mən Elçibəylə bir insan kimi dostluq etmişəm, ona demokratik dövlət qurmaq istiqamətində səmimi şəkildə kömək etmək istəmişəm, ancaq "onun silahdaşı olmuşam" - desəm, yalançı pafos olar. Mən qəti sürətdə onun xarici, kadr və s. siyasətlərini, iqtisadi reformalar istiqamətində süst mövqeyini heç vaxt dəstəkləməmişəm və bunu hər zaman onun nəzərinə çatdırmağa cəhd etmişəm. Müstəqillik sütunu üzərində əsə-əsə dayanmış bir ölkənin prezidentinin RF-nın əleyhinə danışması, Türkiyənin bir vilayəti olmasını arzu etməsi, Təbrizə Şimali Azərbaycanın bayrağını taxacağından danışması ümumiyyətlə heç bir xarici siyasətinin olmamasından xəbər verir. Və ya heç 25 ildən sonra belə, bir rayonun JEK-də işləyə bilməyəcək birini gətirib baş nazir qoymaqla nəyə ümid bəsləyirdi Elçibəy? Nəticədə Sürət Hüseynov 3 tankı və 70 nəfər nəşəli adamları ilə dövlət çevrilişi etdi. 1992-ci ilin mayında hakimiyyəti ələ keçirmiş Xalq Cəbhəsi liderlərinin bir aya yaxın gördükləri işlər millətin böyük əksəriyyətinin onlardan üz döndərməsi ilə nəticələnmişdi. Əgər parlamentin sədri Yaqub Məmmədov namizədliyini geri götürməyə məcbur edilməsəydi, birinci turda Elçibəy maksimum 35 faiz səs toplayardı. Digər namizəd Nizami Müəllimlə rəqabətdə keçən seçki əslində 2-ci tura qalmalıydı; çünki Elçibəy ən çoxu 47 faiz səs toplamışdı. Bu açıqlamaları mən o JEK müdiri-baş nazirlərin yekə-yekə danışmaqlarına görə verirəm".

R.Quliyevin AXC hakimiyyətinin baş naziri kimi hədəf aldığı şəxs AXP sədri Pənah Hüseyndir. Keçmiş nazir qısa olaraq bunları dedi: "Rəsul Quliyevin dediklərinə cavab verməyə ehtiyac duymuram. Məndə bu barədə xüsusi bir maraq da yoxdur".

Xalq Cəbhəsi iqtidarı dövründə daxili işlər naziri postunu tutmuş İsgəndər Həmidov R.Quliyevin dediklərinin cəfəng olduğunu bildirdi: "Yəqin ki, Pənah bəy barəsində deyilənlərə cavab verəcək. O bizim hakimiyyətin ən savadlı, dünyagörmüş şəxslərindən biridir. Əvvəl Pənah bəy dövlət katibi, sonra isə baş nazir oldu. Rəsul Quliyev onun müavini idi. Yəni o, həmin hakimiyyətdə təmsil olunurdu. Ondan qabaq Neft Şirkətində müavin idi, ondan öncə də Neftayırma Zavodunun müdiri idi. Özünü indi niyə kənara çəkir? O fikirlərində tarixləri təhrif də edib. Çünki Yaqub Məmmədov o zaman namizədliyini geri götürmədi. Seçki zamanı bir nəfər iddiasını geri götürdü, o da Tamerlan Qarayev idi, Əbülfəz bəyin xeyrinə namizədliyini geri götürmüşdü. Əbülfəz bəy demokratik yolla qalib gəlib ölkə rəhbəri oldu. Tarixi təhrif etmək kimə və nəyə lazımdır? Rəsul Quliyevin dedikləri boş və cəfəng fikirlərdir. Yaqub bəy daxil olmaqla beş nəfər namizəd var idi və onlardan yalnız biri iddiasını geri götürdü. Rəsul Quliyev unutmamalıdır ki, bizim hakimiyyətdə təmsil olunub. Əbülfəz bəyin böyüklüyü onda idi ki, hakimiyyət naminə qarşıdurmaya getmədi. Rəsul Quliyev niyə belə yalanlar danışır? Açığı çox təəccüb edirəm. O seçkilərdə heç kəs məcbur edilməyib ki, iddiasından geri çəkilsin. Tamerlan Qarayev öz istəyi ilə geri çəkildi. O, Xalq Cəbhəsinin üzvü idi və Xalq Cəbhəsinin rəhbərinin namizədliyi veriləndən sonra geri çəkildi. Bu dünənki tarixdir, sənədlər də itməyib. 20 gün AXC hakimiyyətində təmsil olunduğunu deyir, açığı bu fikirlərinə də məəttəl qalmışam. Neft Şirkətində müavin olmaq, Neftayırma Zavodunda müdir, baş nazirin müavini olmaq hakimiyyətdə təmsil olunmaq deyilmi? Kadr islahatlarını dəstəkləmədiyini deyir, gərək onun kimilərinə vəzifə verilməyəydi. Yəqin indiki iqtidara yarınmaqdan ötrü belə açıqlamalar verir, iyirmi neçə ildən sonra yenidən bizi hədəfə gətirir. Xarici siyasətimizdən də danışıb. Bunun barədə deyə bilərəm ki, Əbülfəz bəy Təbrizə bayraq asmaq söhbətini prezident seçilənə qədər edib. Digər tərəfdən Türkiyə bizə qardaş ölkədir, bizi iki dəfə xilas edib, yenə də qardaş ölkə olaraq qalır, amma heç vaxt Əbülfəz bəy deməyib ki, Azərbaycan Türkiyənin bir əyaləti olsun. Boris Yeltsinlə Elçibəy görüşüb, rus qoşunlarını da bəli ölkədən biz çıxarmışıq. Müstəqil bir ölkənin ərazisində nə üçün kənar bir dövlətin qoşunları olmalıdır? Rəsul Quliyev burada da tam mənasız və təhrifedici fikirlər səsləndirib. Hakimiyyətimizin ilk ayında gördüyümüz işlərə görə xalqın bizdən üz döndərdiyini deməsi də çox gülməlidir. AXC-nin hakimiyyəti ələ keçirdiyini də deyir. Bu da tam yalandır. 1990-ci ilin 15 mayında Azərbaycan Konstitusiyası pozulmuşdu, xalq qalxıb konstitusiyanı bərpa etdi. Biz də xalqın önündə getmişik. Xalqın konstitusiyanı bərpa etməsi və hakimiyyəti devirmək tam ayrı-ayrı anlayışlardır. Burada da Rəsul Quliyev nəyisə qarışdırır. Mənə təəccüb gələn odur ki, AXC hakimiyyəti dövründə Rəsul Quliyevin incik düşdüyü hallar olmayıb. Hətta rəhmətlik Əbülfəz bəy onu çox himayə edirdi. Sadəcə düşünürəm ki, o indiki hakimiyyətə xoş gəlməkdən ötrü belə açıqlamalar verir. Bu şəxsin təzadına baxın. Axşam ona sual verirlər ki, çağırsalar bugünkü hakimiyyətlə bir yerdə işləyərsən, deyir xeyr. Səhəri gün isə deyir ki, baxır kimin çağırmağı. Səni yalnız bir şəxs çağıra bilər ki, o da ölkənin rəhbəridir. Deməli burada əl yeri qoyur ki, çağırsa gedib işləyə bilərəm".

❑ **Cavanşir ABBASLI,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 30 (6919) 8 fevral 2018

**Bu ilin aprelində keçiriləcək prezident seçkisindən sonra hakim komandada radikal dəyişikliklərin olacağına dair xəbərlər var. "Yeni Müsavat"a maliyyə-bank sektorundan daxil olmuş məlumatlarda şok adlar yer alıb. Bildirilir ki, hakimiyyətin yaxa qurtarmağa çalışdığı bir neçə mühüm post sahibi var və prezident seçkisindən dərhal sonra onların adları prezidentin yeni komandasının siyahısında olmayacaq. Vurulacağı deyilən şəxslərin əksəriyyətinin iqtisadi blokda təmsil olunan məmurlar olacağı gözlənilir.**

# Seçkidən sonra hakimiyyət komandasında olmayacaq məmurlar

## Samir Şərifovla Elman Rüstəmovun limiti bitib-iddia




Hakimiyyət üçün arzuolunmaz sayılan kadrlar arasında maliyyə naziri Samir Şərifovun, eyni zamanda Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmovun adı çəkilir. Ölkənin maliyyə və bank sektorundakı vəziyyətdən sorumlu olan bu şəxslər neftin dünya bazar qiymətinin düşdüyü dövrdə qeyri-peşəkar yanaşmalarıyla iqtisadiyyatda böyük problemlərin yaranmasına rəvac veriblər. Belə ki, böhranın başlandığı ilkin dövrdə yerli və xarici ekspertlərin təkidli çağırışlarına rəğmən Azərbaycanda manatın məzənnəsi sərbəst buraxılmadı. Maliyyə-bank sektorunun başbilənləri Mərkəzi Bankın vəsaitləri hesabına manatın məzənnəsini süni surətdə saxlamağa cəhd göstərdilər. Nəticədə, qısa bir müddətdə Mərkəzi Bankın 18 milyard dollar təşkil edən valyuta ehtiyatları 4 milyard dollara düşdü. Manatın devalvasiyalarından sonra məlum oldu ki, manatın məzənnəsinin böyük zərər hesabına saxlanması heç də səbəbsiz deyilmiş: müəyyən qüvvələr Azərbaycanda dolların ucuz olmasından istifadə edərək milyardlarla dollar qazanc əldə ediblər. Dövlət başçısı səviyyəsində açıqlanan məlumatlardan aydın oldu ki, bu qüvvələr gündə yüz milyonlarla dollar əldə etməyi bacarıblar.

Məlum oldu ki, devalvasiyadan günlər əvvəl kimlərsə irihəcmli əməliyyatlar həyata keçirərək yüz milyonlarla dollar alıblar. Bu alqı-satqıdan xüsusilə Elman Rüstəmovun xəbərsiz olması mümkün deyildi çünki ölkədə məzənnə tənzimlənməsini həyata keçirən əsas orqan Mərkəzi Bank idi. Ölkədə dolların əsas satıcısı da Mərkəzi Bank idi. Hansı bankın nə qədər dollar aldığını, aldığı dolları qısa müddət ərzində necə xırd etdiyini baş bankirdən yaxşı kimsə bilə bilməzdi. Ölkə rəhbərliyinin də dilə gətirdiyi bu əməldən E.Rüstəmov, əlbəttə, xəbərsiz deyildi. Xəbərinin olması və mane olmaması onun dövlət maraqlarına ən böyük zərbəsi idi. Bu susqunluğuna görə də sonrakı dövrdə Mərkəzi Bankın banklarla bağlı əsas səlahiyyətlərinin demək olar ki, hamısı əlindən alındı.

Ötən ilin payızında mətbuatda gedən məlumatlardan aydın oldu ki, Mərkəzi Bankın rəhbərini həm də rahatca "kredit oliqarxı" hesab etmək olar. Həmin məlumatlara görə, E.Rüstəmov birinci devalvasiyadan bir neçə həftə əvvəl Gürcüstanın inşaat sektoruna 700 milyon manat vəsait qoyub. Devalvasiyadan əvvəlki məzənnə ilə bu, təxminən 1 milyard dollar təşkil edir.

Bank mənbələrinin məlumatına görə, E.Rüstəmov həmin məbləği "Respublikabank"dan, Beynəlxalq Bankdan və Azərbaycanın daha bir neçə bankından götürüb və hələ də qaytarmayıb. Baş bankirin heç bir reaksiya verməmdiyi, yəni həm də təkzib etmədiyi bu məlumat onun devalvasiyalardan az əvvəl müxtəlif banklar vasitəsilə yüz milyonlarla dolların alınmasına niyə göz yumduğunu açıqlayır.

Eyni zamanda aydın məsələdir ki, uzun illər Mərkəzi Banka rəhbərlik etməklə ölkənin bank sektorunu əlinin içi kimi tanıyan E.Rüstəmov, maliyyə sisteminə rəhbərlik edən S.Şərifov proseslərin belə xarakter alacağını görməmiş deyildilər. Bu halda onların hansı maraqlardan çıxış edərək dolları ucuz saxlamağa çalışdıqları sıravi vətəndaşlardan tutmuş, ölkə rəhbərliyinə qədər hamını düşündürəcək sualdır.

Baş bankirlə baş maliyyəçinin mütləq və mütləq görməli olduqları digər cinayət, əlbəttə ki, Beynəlxalq Bankdan oğurlanan on milyardlarla manat dövlət vəsaitidir. Biri bank sektorunun, digəri isə maliyyə sisteminin tənzimləyicisi, biri banklardan verilən kreditlərə, digəri birbaşa Beynəlxalq Bankdan verilən kreditlərə nəzarət edən iki məmurun gözləri önündəcə dövlətin pulu talan edilirsə və onlar bunu görmürlərsə, demək ki, ya tutduqları vəzifəyə uyğun bilik-bacarıqları yoxdur, ya da baş verənlərdə hansısa maraqları və iştirakları olub. Bu, sübuta ehtiyacı olmayan aksiomdur.

Hazırda Azərbaycan dövləti Beynəlxalq Bankın 10 milyard manatlıq toksik aktivlərini, 3,3 milyard dollarlıq xarici borcunu üzərinə götürüb. Ölkəyə qarşı Beynəlxalq Bankın borclarının restrukturizasiyası prosesi ilə bağlı London məhkəməsində iki iddia təmin olunub. Bu isə restrukturizasiya prosesini yubatmaqla yanaşı, 3,3 milyard dolların qısa müddətə ödənməsi kimi arzuolunmaz vəziyyətə gətirib çıxara bilər.

S.Şərifovla E.Rüstəmovu komandadan uzaqlaşdırılmağa namizəd məmur "postu"na gətirən daha bir amil böhran dövründə ölkədə dollar qara bazarının yaradılması faktıdır. Xatırladaq ki, dollar qara bazarının hədsiz genişlənməsi Milli Məclisdə belə müzakirələrin açılmasına səbəb oldu. 2017-ci ilin dövlət büdcəsinin müzakirəsi zamanı millət vəkilləri ölkədə "qara bazar"ın tüğyan etməsindən narahatlığını ifadə etdilər. "Qara bazar"da dollar satışına münasibət bildirən deputat Yevda Abramov bildirmişdi ki, əlaqədar qurumlar vəziyyətə nəzarəti itirib: **"Metro stansiyalarının çıxışlarında dollar satılır. Bir gündə dollar 4-5 manat fərqlə satılır. Haradandır bu adamların maşınlarında bu qədər dollar?"**

Az sonra məlum oldu ki, dollar qara bazarının təchizatçıları iki dövlət bankının - Beynəlxalq Bank və "Azər-türk Bank"ın rəhbərləridir. Dövlətin bütün imkanlarını səfərbər edib manatın məzənnəsini sabitləşdirməyə çalışdığı bir zamanda bu şəxslərin arxasındakı qüvvələrin qara bazarda qaz vurub qazan doldurması çox böyük narazılıq və qəzəbə səbəb olmuşdu. Həmin vaxtlar hətta maliyyə nazirinin özünün də prosesin içərisində olduğuna dair məlumatlar yayılmağa başlamışdı. Lakin proseslərin daha da dərinləşməsinə imkan verilmədi və Beynəlxalq Bankın rəhbəri Elmar Məmmədov, "Azər Türk Bank" ASC-nin İdarə Heyətinin sədri Fərhad Adıgözəlov da daxil olmaqla qrupun iş başından alınması ilə kifayətləndi.

Azərbaycanda dövlət xərclərinin sahəsində ciddi nöqsanların olduğu heç kimə sirr deyil. Elə Hesablama Palatasının son 2 ildə apardığı audit yoxlamalarına dair məlumatlarına baxmaq yetər ki, büdcədən irihəcmli vəsait alan əksər dövlət qurumlarında nə qədər böyük mənimsəmələrə yol verildiyini görmək mümkün olsun. Qeyd edək ki, ölkədə büdcə hesabına xərclənmələrə ilkin maliyyə nəzarətini məhz S.Şərifovun rəhbərlik etdiyi qurum - Maliyyə Nazirliyi yanında Dövlət Maliyyə Nəzarəti Xidməti həyata keçirir. Necə olur ki, bu xidmətin illər boyu heç bir nöqsan aşkarlamadığı qurumlarda Hesablama Palatası yüz milyonlarla manatlıq pozuntular tapır?! Bu sualların ölkə rəhbərliyini də narahat etdiyi göz önündədir. Bunun nəticəsidir ki, Hesablama Palatası haqqında yeni qanun layihəsi hazırlanır, o qanunla Palataya çox geniş səlahiyyətlərin verilməsi nəzərdə tutulur.

Maliyyə-bank sektoruna rəhbərlik edənlərin yarıtmaz fəaliyyətlərinin nəticəsidir ki, bu gün Azərbaycan bankları düşdükləri ağır böhrandan qurtula bilmirlər. Bankların kredit siyasətinin nəzarətsiz buraxılması nəticəsində yaranan problemli kreditlərin həcmi 2 milyard dollara, ümumi kredit portfelindəki payı isə 15 faizə çatmaqdadır. Ölkə böhrandan çıxmaq üzrədir, lakin bank sektoru bu prosesi əngəlləyir.

**Bütün qeyd olunanlar göstərir ki, seçki hər iki kadrdan qurtulmaq, iqtisadi blokda komandanın yenilənməsi üçün ölkə rəhbərliyinə əlverişli fürsət yaratmış olacaq.**

**❑ TURQUT, "Yeni Müsavat"**

# Dünya Bankının layihələri Azərbaycanda niyə uğursuzluğa düçar oldu...

## Əkrəm Həsənov: "Əhalinin kreditləşdirilməsi DB-nin tövsiyələrindən biri idi, nəticədə insanlar daha da kasıblaşdı"

**Xəbər verdiyimiz kimi, Mərkəzi Bankın sədri Elman Rüstəmov Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



M. Tembon Dünya Bankının Azərbaycanla əməkdaşlığının qurulduğu 25 il ərzində həyata keçirilmiş layihələr zamanı əldə edilmiş nəticələr, qazanılmış təcrübə, göstərilən xidmətlərin önəmini xüsusi olaraq vurğulayıb.

Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığının yüksək səviyyədə olduğunu vurğulayan sədr E. Rüstəmov ölkədə makroiqtisadi sabitlik, qeyri-neft sektorunun inkişafı, ölkədə maliyyə sabitliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərə dair ətraflı məlumat verib. E. Rüstəmov qlobal iqtisadi mühit və regional çağırışlar fonunda Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığının daha da dərinləşəcəyinə və ölkəmizin Dünya Bankının institusional təcrübəsindən faydalanacağına ümidli olduğunu bildirib.

Bəs görəsən, DB-nin 25 il ərzində Azərbaycanda həyata keçirdiyi işləri ekspertlər necə qiymətləndirirlər? Baş bankirin də dediyi kimi, Azərbaycan Dünya Bankının hansı sahələrdəki təcrübəsindən yararlana bilər?

**"Yeni Müsavat"a açıqlamasında bu sualları cavablandıran iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov bildirdi ki, ötən illər ərzində Dünya Bankının Azərbaycanda hər hansı uğurlu bir layihəsi olmayıb:** "Azərbaycan artıq 27 ildir ki, müstəqildir. Mən Elman müəllimdən soruşmaq istərdim ki, bu müddət ərzində Dünya Bankı bizim üçün nə edib? Onların hansı təcrübəsi bizim xeyrimizə olub? Mən bunu Dünya Bankının nümayəndələrinə də dedim. Ötən il sentyabrın əvvəlində Azərbaycana gəlmişdilər, mənimlə də görüşmüşdülər. Onlara dedim ki, sizin nizamnamənizdə də yazılıb ki, bu bankın əsas məqsədlərindən biri dünyada kasıblığın azaldılmasıdır. O cümlədən Azərbaycanda və digər ölkələrdə mikromaliyyələşdirmə layihələrini təşviq edirsiniz. Yəni ölkəmizdə əhalinin kreditləşdirilməsi kimi məsələlər hamısı Dünya Bankının bizə tövsiyələri olub. Onlara dedim ki, məhz bunun nəticəsində Azərbaycan əhalisini daha da kasıblaşdırmısınız. Borc əlindən intihar edirlər, ailələr dağılır. Bizim məmurlardan fərqli olaraq onlar tam səmimi etiraf etdilər ki, bunu özləri də bilirlər. Dedilər ki, bu sözlər bizə hər yerdə deyilir. Bir tərəfdən istəyirlər ki, kasıblığı aradan qaldırsınlar. Digər tərəfdən də bank sektorunun inkişafı üçün çalışırlar. Ancaq təkcə bu iki işlə məşğul olmurlar, bəzi layihələr üzərindən bizdən hətta gəlir də götürürlər. Dünya Bankı bizə kreditlər ayırır. Həmin kreditlərdən də gəlir götürür. Bu baxımdan bu bankın bizim üçün nələr edə biləcəyini mən hələ ki bilmirəm".

**Ə.Həsənovun sözlərinə görə, DB-nin Azərbaycanda həyata keçirmiş olduğu 3 layihə var ki, onların heç biri tam uğurlu olmayıb:** "Təxminən 15 il öncə Dünya Bankı Azərbaycanda iki böyük layihəyə başladı .Biri korporativ idarəetmə layihəsi idi, digəri isə ipoteka kreditləşdirilməsi idi. Nəticə nə oldu, nə edə bildilər? Korporativ idarəetmə layihəsi 10 ilə yaxın davam etdi, sadəcə, pulları dağıtdılar, ortada heç bir nəticə yoxdur. Azərbaycanın hansı şirkətində normal korporativ idarəetmə var? Heç birində... İpoteka kreditləri ilə bağlı vəziyyət də həmçinin. Biz əgər İpoteka Fondunun ilkin sənədlərinə baxsaq, orada qeyd olunur ki, bu fond yaxın müddətdə özəlləşdirilməlidir. Yəni ipoteka kreditləri dövlət tərəfindən verilməməli idi, bu fond özəl quruma çevrilməli idi. Dünya Bankı guya bu ideya ilə gəlmişdi. Nəticə o oldu ki, İpoteka Fondu hələ də dövlətindir, o pul yenə də dövlətdən çıxır. Dünya Bankı heç bir səmərəli idarəetmə yarada bilmədi".

**Ekspert onu da vurğuladı ki, DB-nin xətti ilə yaradılan Kredit Bürosu bank sektorunda müsbət irəliləyiş yaratmaq üçün yetərli olmadı:** "Dünya Bankının Azərbaycanda həyata keçirdiyi sonuncu layihə kimi Kredit Bürosunu deyə bilərəm. Həmin büro haqqında qanun da 2016-cı ildə məhz Dünya Bankının xətti ilə qəbul olunub. O zaman da çox yüksək fikirlər səsləndi ki, Dünya Bankı bu işləri həyata keçirir. Son nəticədə heç nə dəyişmədi. Sadəcə, Mərkəzləşmiş Kredit Reystrinin adını dəyişib Büro etdilər. Heç bir yenilik də yoxdur. Bununla demək istədiyim odur ki, Dünya Bankı bu günə kimi Azərbaycanda real bir iş görməyib. Onlardan öyrəniləsi nə var mən bilmirəm... Elman Rüstəmov bir qədər konkret desəydi, biz bilərdik. Dünya Bankının Azərbaycandakı nümayəndəliyində də real bir iş görülmür".

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (6919) 8 fevral 2018



# Ərdoğan niyə Vatikana yollandı?..

**Hüseynbala SƏLİMOV**

**"İndi politologiya yox, konspirologiya vaxtıdır". Əslində bu deyim indiki çağın söhbəti deyil - siyasət əsrlər boyu konspirologiyadan daha şəffaf politologiyaya doğru addımlayıb, dövlətlər və cəmiyyətlər daha da şəffaflaşdıqca siyasətin konspiroloji mahiyyəti kiçilib, onun bəzi mühüm tərəfləri adi insanlar üçün də açılıb.**

Amma prosesin bitdiyini demək tezdir. Bir tərəfdən heç də bütün dövlətlərin demokratikləşməməsi, digər tərəfdən də hətta ən demokratik ölkələrin siyasətində bəzi gizli məqamların qalması belə deməyə əsas verir ki, hələ konspirologiya terminini çox eşidəcəyik.

Bütün bunları niyə deyirik? Siyasətdə elə ünvanlar var ki, onların hətta adı konspirologiya ilə eyniləşdirilir. Belə ünvanlardan biri də Vatikandır və bu cırtdan dövlətin qüdrətli çağlarından əsrlər keçsə də hələ də çoxu düşünür ki, ən azı xristian dünyasını Vatikan idarə edir...

Təbii, biz də Vatikanı sadəcə, kilsə, hətta möhtəşəm kilsə kimi qəbul etmirik, düşünürük ki, onun dünya proseslərinə müəyyən təsiri var - di gəl, bu təsirin sərhədləri haqda təxmini də olsa, bilgiyə malik deyilik.

Bircə onu deyə bilərik ki, milyonlarla katolik üçün Vatikan bütün hallarda sakral məzmun kəsb edir, üstəlik, ötən il diqqətimizi bir maraqlı detal çəkdi - Avropa Birliyi ölkələri qurumun yubileyini Vatikanda, elə papanın hüzurunda qeyd etdilər...

Bu baxımdan Türkiyə prezidentinin Vatikana dəvət alması artıq o deməkdir ki, müqəddəs Pyotr meydanında da Türkiyənin artan rolunun, onun prezidentinin nüfuzunun fərqindədirlər. Son dövrlərdə xüsusən üç proses-İraq kürdlərinin referendumunun qapadılması, Qüdslə bağlı çox ciddi və uğurlu kampaniyanın aparılması və təbii ki, sonuncu Afrin əməliyyatları Türkiyəyə və onun siyasi isteblişmentinə diqqəti artırıbdır.

Həm də bir faktı demək lazımdır ki, bu son 30 ildə Türkiyənin ən nüfuzlu rəhbəri, heç sözsüz ki, R.T.Ərdoğan olub. Bəli, onun siyasətinin bəzi məqamları ilə mübahisə etmək olar, amma bir məsələ şübhəsizdir ki, Ərdoğan regionda ən nüfuzlu siyasi liderlərdəndir.

Vatikanla dialoqun Türkiyə üçün də önəmi var. Əgər Avropa, xristian dünyası həqiqətən mütərəqqi islamda maraqlıdırlarsa, Türkiyəyə diqqəti artırmalıdırlar.

Məhz Avropanın on illərlə Türkiyəni qapı ağzında saxlaması təkcə bu ölkədə yox, cəmi müsəlman dünyasında radikal meyllərin güclənməsinə təkan verdi. Bilirsiniz, elə anlar olur ki, adam ortodoksların, mühafizəkarların "Bu da sizin Avropa..." qınağının qarşısında aciz qalır və belə yanaşmalara əks arqument tapa bilmirsən...

Vatikanın da siyasətində diqqət çəkən budur ki, katolik liderləri tək öz dindaşlarının deyil, dünyanın digər dinlərinə sitayiş edən insanların belə rəğbətini qazanmağa çalışır - bunu sübut edən onlarla misal deyə bilərik.

Bir daha deyirik ki, Vatikanın əsl "siyasət mətbəxi"ndən xəbərsizik və bir qədər əvvəldə dediyimiz konspiroloji məqamlardan agah deyilik, gəl, görünən budur ki, böyük Pyotr meydanında katolik dünyasının insanlara daha anlaşıqlı olmasına çalışırlar.

D.Tramp Qüdslə bağlı qərar qəbul edərkən Vatikanın reaksiyasını xüsusilə izləməyə çalışdıq. Xatırladaq ki, Roma papası D.Trampı tələsməməyə və Yaxın Şərqdəki onsuz da gərgin vəziyyəti bir azca da gərginləşdirməməyə çağırdı. Elə əksər ölkələrin Fələstinə dəstək olması da bəlkə də həm də bunun nəticəsi idi...

Bəli, demək olar ki, xristian dünyasının özünün Qüdsə iddiaları var. Təbii, Qüds xristianlar üçün də müqəddəs məkandır. Amma düşünmək ki, Vatikanın da ona bilavasitə siyasi iddiası var - yəqin bu, tamam düz olmaz və çox ehtimal, katolik dünyası istərdi ki, Qüdsə elə beynəlxalq status verilsin ki, o, hər üç dinin təmsilçilərinə açıq olsun...

R.T.Ərdoğanın səfəri başqa bir mənada da diqqət çəkir. Məlum olduğu kimi, hələ on illər bundan əvvəl türk əsilli millyətçi Mehmet Ağca Roma papasına sui-qəsd etməyə çalışmışdı.

Bu məsələnin detalları hamıya məlumdur və hamı gözəl bilir ki, olayın nə türk dünyasına, nə də müsəlman aləminə heç bir dəxli yox idi. Amma mümkündür ki, ucqar ölkədə hansısa adi katolikin ürəyində bu şübhələr qalıbdır, - onları da götürmək lazımdır...

Digər məsələ isə böyük dinlərin dialoqudur. Hazırda islam dünyasında Türkiyədən güclü və Qərb dəyərlərinə yaxın ikinci bir ölkə yoxdur. Ümid edirik ki, digər Avropa ölkələri bunu unutsa da hər halda, Vatikan onun fərqindədir...

**Fevralın 6-da müxalifət partiyaları sədrlərinin növbədənkənar prezident seçkisi ilə bağlı fövqəladə toplantısı olub. 4 saatdan artıq çəkən görüşdə seçkidə iştirak, yoxsa boykot qərarı verilməsi müzakirə edilib. Seçkidə iştirak etmək tərəfdarları ilə boykot tərəfdarları arasında yekdil razılığa gəlmək mümkün olmayıb. Bu səbəbdən də belə bir toplantının olduğu barədə mətbuata ümumiyyətlə məlumat verilməyib. Ümumi mövqe belə olub ki, seçki ilə bağlı hər kəs özünün məqbul hesab etdiyi qərarı versin.**

# Sərdar Cəlaloğlu seçki üçün sponsor axtarır

## ADP sədri: "Seçkinin o qədər çoxlu siyasi əhəmiyyəti var ki, onu yalnız hakimiyyətə gəlmək prinsipi ilə məhdudlaşdırmaq düzgün deyil, kimin maliyyə imkanı varsa, iştirak etsin"

Bu barədə ətraflı məlumat almaq üçün müraciət etdiyimiz ADP sədri Sərdar Cəlaloğlu belə bir görüşün keçirildiyi barədə "Yeni Müsavat"a daxil olan məlumatın düzgün olduğunu bildirdi. Lakin ətraflı informasiya vermədi. S.Cəlaloğlu qeyd etdi ki, bir araya gəlmək və vahid mövqedən çıxış etməmək üçün əsassız bəhanələr irəli sürülür. Müxalifətdə nailiyyətsizlik sindromundan doğan bir vəziyyət hökm sürür. Hər kəs özünü düzgün, qarşı tərəfi satqın sayır.



**Seçkidə iştirak edib-etməmək məsələsinə gəlincə, ADP sədri dedi ki, ümumiyyətlə, seçkidə iştirakın iki prinsipi var. Biri nəyin bahasına olur-olsun seçkidə iştirak, biri isə sadəcə, seçkidə iştirak naminə iştirakdır:** "Nəyin bahasına olur-olsun iştirak o deməkdir ki, sən artıq demokratik prinsipləri yox, hakimiyyətə gəlmək prinsiplərini əsas götürürsən. Ona görə də hətta anti-demokratik yolla da olsa hakimiyyətə gəlmək üçün seçkilərə qatılırsan. Mən demokratiyanı üstün tutan adam olduğum üçün hesab edirəm ki, seçkiyə nəyin bahasına olur-olsun prinsipi ilə heç vaxt qatılmıram. Seçkilər xatirinə seçkiyə qatılmaq prinsipi isə demokratik prosedurların müdafiə olunması deməkdir. Yəni indi seçki antidemokratik ola bilər, sabah isə demokratik olar. Amma seçki olmasa, demokratiya və qanunun olmasının heç bir əhəmiyyəti olmaz. Çünki seçki yoxdursa, hakimiyyətin seçki yolu ilə dəyişilməsi də yox deməkdir. Bir çox ölkələrin təcrübəsi göstərir ki, demokratik seçki proseduras müəyyən bir dövrdə işləməsə də seçkinin özü qaldığı üçün müəyyən müddət sonra seçki demokratik keçirilir və demokratlar dinc yolla hakimiyyətə gəlir. Yaxın tarixdə bu cür təcrübələr var. Ona görə də seçkinin bir institut kimi tamamilə sıradan çıxmaması üçün seçki seçkidə iştirak edilməlidir".

**S.Cəlaloğlu həmçinin bildirdi ki, seçkidə iştirak etmək ən azı siyasi müxalifətin mövcudluğunu qorumaq üçün də lazımdır:** "Mövcudluq qorunmalıdır ki, gələcəkdə şərait yaransa, biz müxalifət vəzifələrimizi yerinə yetirək. Ölkədə demokratik prinsipləri qorumalıyıq. Odur ki, 11 aprel seçkisində iştirak eləmək çox vacibdir. Şəxsən mən özüm namizədliyimi vermək qərarına gəlməmişəm. Yeganə səbəb seçki üçün lazım olan maliyyə resursumun olmamasıdır. Seçkidə iştirak eləmək üçün müəyyən qədər vəsaitin zəruri olduğu bəllidir. Hazırkı Seçki Məcəlləsi namizədlərə dövlət büdcəsindən vəsait ayrılmasını da nəzərdə tutmur. Maliyyə problemindən başqa seçkiyə getməməklə bağlı səbəb olaraq irəli sürülən fikirlərin heç biri demokratik düşüncəyə uyğun deyil. Mənim maliyyə imkanım olsa böyük məmnuniyyətlə bu seçkilərdə iştirak edərəm. Seçkilər siyasətçinin xalqa sözünü çatdırması üçün həm də böyük bir fürsətdir. Ağıllı siyasətçi maliyyə imkanı varsa, bu fürsəti əldən buraxmamalıdır. Seçki yalnız və yalnız hakimiyyətə gəlmək vasitəsi deyil. Seçkilər xalqı aktivləşdirmək, xalqın öz gələcək taleyini düşünmək vasitəsidir, müxalifət ideyalarının xalqa çatdırılma vasitəsidir. Bu cür ciddi vasitədən imtina edilməməlidir. Seçkinin o qədər çoxlu siyasi əhəmiyyəti var ki, onu yalnız hakimiyyətə gəlmək prinsipi ilə məhdudlaşdırmaq düzgün deyil. Mən siyasi qüvvələrə demək istəyirəm ki, kimin maliyyə imkanı varsa, seçkidə iştirak etsin. Mən özüm müəyyən yoldaşlara müraciət eləmişəm, əgər maliyyə sponsorluğu eləyən olsa namizədliyimi irəli sürəcəyəm. Buna görə də heç kim məni və ya seçkidə iştirak edən digər şəxsləri ittiham etməməlidir. Bəzilərində bir adət yaranıb ki, kim düzgün addım atır, kim onun atdığı səhv addımları dəstəkləyib təkrarlamırsa, başlayırlar onu xəyanətkar adlandırmağa. Belə adamların özləri seçkidə iştirak edəndə onu düzgün qərar kimi təqdim edirlər, özləri seçkiyə getməyəndə, boykot qərarı verəndə seçkiyə getməyi xəyanət, satqınlıq kimi təqdim edirlər. Bu cür yanaşma ilə uzağa getmək olmaz. Mən hesab edirəm ki, seçkidə iştirak eləmək onun nəticəsindən asılı olmayaraq vacibdir".

**ADP sədrinin sözlərinə görə, seçkiyə getməyənlər iddia edirlər ki, seçkiyə qatılmaq onun nəticələrini legitimləşdirməkdir. Lakin onlar unudurlar ki, seçkini müxalifətin iştirakı legitimləşdirmir:** "Qanunda var ki, alternativsiz seçki olmaz. Hakimiyyət istədiyi qədər alternativ namizədlər meydana çıxara bilər. Qanunda yazılmayıb ki, müxalifət seçkidə iştirak etmirsə seçki legitim ola bilməz. Bilmək lazımdır ki, bütün seçkilərin nəticələrini legitimləşdirən xalqın seçkidən sonra passivliyidir. Bəzi yoldaşların savadsızlığıdır ki, müxalifətin seçkidə iştirakını seçkini legitimləşdirən amil kimi sırımağa çalışırlar. Müxalifətin seçkidə iştirak edib-etməməsinin seçkinin legitimliyinə heç bir aidiyyəti yoxdur".

**Xatırladaq ki, Sərdar Cəlaloğlu 2013-cü ilin prezident seçkisində iştirak edib.**

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (6919) 8 fevral 2018

# Növbədənkənar prezident seçkisində "Qarabağ izi"...

**Azərbaycan prezidenti İlham Əliyevin aprelin 11-nə növbədənkənar seçki təyin etməsi təkcə Azərbaycanda deyil, ölkə xaricində də ciddi rezonans doğurub. Bir sıra ekspertlər bu qərarı həm də Qarabağ məsələsi ilə əlaqələndirirlər.**

## Yerli və əcnəbi analitiklər seçkidən sonra müharibənin alovlana biləcəyini istisna etmirlər; **rusiyalı ekspert:** "Aprel-iyul münaqişənin taleyində həlledici ola bilər..."




Rusiya Elmlər Akademiyası nəzdində Dövlət Qulluğu və İdarəetməsi İnstitutunda şöbə rəisi, Millətlərarası Münasibətlər üzrə Prezident Şurasının üzvü **Vyaçeslav Mixaylov** seçki tarixinin dəyişdirilməsinin Dağlıq Qarabağ münaqişəsi ilə mümkün bağlantısını təhlil edib. Mixaylov "EurAsia daily" portalındakı yazısında İlham Əliyevin dördüncü müddətə prezident seçilməsi yolunda elə bir əngəlin olmadığını, bu qərarın verilməsində Qarabağ münaqişəsini aparıcı səbəb kimi gördüyünü yazıb.

**O qeyd edib ki, Qarabağ ətrafındakı vəziyyət fərqli olduğundan, bu durum Əliyevin rəqiblərini üstələməsini tələb edir.** "Burada iki əsas ssenari var və hər ikisi də Azərbaycanın siyasi rəhbərliyinin və hərbi komandanlığının Qarabağ planları ilə sıx bağlıdır", - müəllif qeyd edib. Müəllif ssenarilərdən birinin sülhə deyil, müharibəyə apardığını bildirib. Belə ki, Əliyev yayadək mövqeyini möhkəmləndirir və Bakı 2016-cı ilin aprelindən sonra yeni irimiqyaslı hərbi hücuma keçir. İyunun 26-da Azərbaycan ordusu 100 illiyini qeyd edir. Bu, rəhbərlik və hərbi komandanlıqdan ötrü yubileyi yalnız hərbi paradla bayram etməyə yaxşı fürsətdir. "İyun-iyul aylarında Qarabağda cəbhə xəttində gərginlik artacaq. Sual onun müddətinin dörd günlük aprel döyüşlərini kölgədə qoyacağı və daha intensiv müharibəyə keçib-keçməyəcəyidir" - Mixaylov əlavə edib.

**Siyasətçi bu il iyunun 14-dən iyulun 15-dək Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatının Bakının "müharibə naryadı"nın xeyrinə olacağını da iddia edib. Belə ki, Rusiyanın başı idman tədbirinə qarışacaq.** "2008-ci ilin yayında Zaqafqaziya lideri *(Gürcüstanın o vaxtkı prezidenti Mixail Saakaşvili nəzərdə tutulur - red.)* Olimpiya oyunlarından yararlanaraq özünün revanşist planlarını gerçəkləşdirməyə çalışdı. Ovaxtkı hücum alınmadı. Amma Əliyev onu siyasi və həbi avantürada şübhəli saymağa ciddi əsas verməyib. Di gəl, Bakıda "ya indi, ya da heç vaxt" əhval-ruhiyyəsi kritik həddə yüksəlir. Prezident, ali komandan və bütün Azərbaycan siyasi reallıqlarının əsas problemini həll etmək istəyir və bu yay bunu gerçəkləşdirməyə ən yaxşı fürsətdir. Növbədənkənar seçki təyin etməklə, Əliyev hər iki ssenariyə əl atmaq hüququnu saxlayır. Fikrimizcə, münaqişənin həllinin Madrid alqoritmi Azərbaycanın maraqlarına uyğundur, apreldən sonra bəzi diplomatik addımlar atıla bilər. "Yol xəritəsi" ssenarisi alınmazsa, bu, hərbi əməliyyatları alovlandıra bilər. Hər iki halda, aprel-iyul aylarının Qarabağ münaqişəsinin gələcək taleyində həlledici olacağı görünür" - siyasətçi yazıb.

**Politoloq Elçin Mirzəbəyli isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanın olduğu və Azərbaycanla bağlı olan hər yerdə, hər hadisədə Qarabağ amili var:** "Əks təqdirdə, bu bizim işğalla barışdığımız anlamına gələ bilər. Bu baxımdan, şübhəsiz ki, ölkəmizdə keçiriləcək növbədənkənar prezident seçkisində də Qarabağın izi var. Seçkilərin elan olunmasında bir çox mühüm amillər nəzərə alınıb. Dünyada və regionda baş verən proseslər dərindən təhlil olunub və seçkilərin keçirilməsi üçün uyğun vaxt seçilib. İstənilən məsələnin həlli üçün - bu, istər ölkənin ərazi bütövlüyünün təmin olunması ilə bağlı olsun, istər islahatların sürətləndirilməsi, istərsə də təhlükəsizlik və digər amillərlə əlaqəli olsun - ilk növbədə siyasi hakimiyyətin ardıcıllığını, dövlət idarəçilik institutlarının sabit fəaliyyətini təmin etmək lazımdır. Azərbaycan prezident üsul-idarəsi ilə yönəldilən bir dövlət olduğu üçün prezident seçkisi bütün digər seçkilərdən daha böyük əhəmiyyət daşıyır. Yeni seçilən prezident qarşıdakı hədəfləri, öhdəlikləri müəyyənləşdirməli və onların həyata keçirilməsini səlahiyyətli olduğu zaman kəsiyinə uyğunlaşdırmalıdır".

**Politoloq bizim üçün ən önəmli məsələnin ərazi bütövlüyü olduğunu dedi:** "Təbii ki, növbədənkənar prezident seçkilərində bu amil daha böyük çəkiyə malikdir. Əslində Azərbaycanın bir dövlət kimi fəaliyyətinin bütün istiqamətləri ölkənin ərazi bütövlüyünün təmin olunmasına yönəlib. Yəni iqtisadi baxımdan güclü olmasan güclü ordu qura bilməzsən, güclü ordun olmasa, danışıqlar prosesində mövqeyini müdafiə etmək çətin olar, yaxud ərazi bütövlüyünü təmin etmək üçün hərbi əməliyyatlara ehtiyac duyulanda qüvvələr nisbəti buna imkan verməz. Və ya əgər qlobal enerji və nəqliyyat dəhlizlərinin tərkib hissəsi kimi ölkənin geosiyasi önəmini artırmazsansa, o zaman beynəlxalq dəstəyin yetərincə olmaz, mövqelərin zəifləyər və bu da təbii ki, ərazi bütövlüyünün bərpası prosesinə öz təsirini göstərər. Dövlət həyatı, regional və qlobal proseslər, bütövlükdə ətrafda baş verən nə varsa, bir-biri ilə birbaşa və ya dolayısı ilə bağlıdır. Hər şey bəzi boşboğazların püskürdüyü aqressiya və kin dolu bəyanatlarda olduğu kimi sadə və bəsit deyil. Ölkənin nəinki inkişafı, hətta mövcudluğu belə siyasi hakimiyyətin sabitliyi ilə bağlıdır. Nə qədər paradoksal görünsə belə, hətta müharibədə də uğur qazanmağın yolu ölkənin və siyasi sistemin sabitliyindən keçir".

**Politoloq Arzu Nağıyev isə əməkdaşımıza bildirib ki, danışıqların perspektivinə inanmır:** "Ermənistanda keçiriləcək seçkilərdə əsas siyasət məhz "Qarabağ kartı" üzərində qurulacağı üçün konfliktin həlli ilə bağlı hansısa müsbət bir addımın atılacağı inandırıcı görünmür. Bununla belə, Serj Sərkisyan və onun cinayətkar komandası ictimai rəy naminə müəyyən müsbət addım atmalıdır. Bu, təbii ki, separatçılara verilən müstəqilliklə bağlı ola bilməz. Çünki bu, artıq Sərkisyanın fiziki məhvi deməkdir. Lakin işğal olunmuş ərazilərlə bağlı müəyyən addımların atılması mümkündür. Bunu da Ermənistana Rusiya məcburi şəkildə etdirməlidir".

**Politoloq Elxan Şahinoğlu isə seçkilərlə hərbi əməliyyatlar arasında əlaqə axtarmağın əleyhinədir:** "Mənə maraqlıdır seçki olmasa müharibəyə başlamaq olmaz? Məgər 2016-cı ildə seçki var idi, apreldə döyüşlər baş verdi?"

Ancaq bu ərəfədə Azərbaycan ordusunun hərbi təlimləri də düşmənin narahatlığını artırır. Müdafiə Nazirliyinin mətbuat xidməti bildirir ki, qoşunların 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq Raket və Artilleriya birləşmələri 152 millimetrlik "DANA" özüyeriyən artilleriya qurğularının istifadəsi ilə döyüş atışlı taktiki təlimlər keçirib. Təlimlərdə praktiki döyüş atışlarının yüksək dəqiqliyini və intensivliyini təmin etmək məqsədilə müasir avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə edilib. Artilleriya birləşməsi qarşıya qoyulan tapşırıqları vaxtında yerinə yetirməklə müəyyən edilmiş hədəfləri dərhal məhv edib. Təlimlərə cəlb edilən şəxsi heyətin hazırlığı, ustalığı və bacarığı komandanlıq tərəfindən yüksək qiymətləndirilib.

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Kreml "Milli Şura proyekti"ni işə sala bilərmi...

## Siyasi ekspertlər deyir ki, 2013-dən fərqli olaraq indi Rusiya ilə Azərbaycan arasında gərginlik yoxdur; təxribatlar hazırlamağa zaman da qalmır...

**Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov növbədənkənar prezident seçkisi ilə bağlı danışarkən bildirib ki, bəzi dövlətlər digər xalqların daxili işlərinə qarışmağa maraq göstərir. Bu, reallıqdır və reallıq olduğuna görə buna göz yummaq olmaz. Ona görə də birgə fəaliyyət göstərməkdən başqa yolumuz yoxdur: "Seçkinin nəticələrini xalq qəbul etməlidir, digər məqamlar önəmli deyil. Azərbaycan seçicilərinin yarıdan çoxunun səsini alan şəxs prezident seçiləcək. Xalqın iradəsindən yüksək heç nə yoxdur".**



Qeyd edək ki, 2013-cü il prezident seçkisi öncəsi Rusiya öz maraqlarını təmin etmək üçün Rüstəm İbrahimbəyov-Milli Şura proyektini işləyib dövriyyəyə buraxmışdı. Seçki öncəsi hakimiyyətə bu proyekt vasitəsilə təzyiq edildiyi açıq görünürdü. Bəzi siyasi ekspertlər hesab edir ki, MSK sədri Məzahir Pənahovun MSK-nın seçki qərarı verdiyi iclasda verdiyi "Bəzi dövlətlər digər xalqların daxili işlərinə qarışmağa maraq göstərir" bəyanatı yenə hansısa proyektlərin hazırlana biləcəyi ehtimalının olduğuna işarə sayıla bilər.

Bəs Rusiya 2013-cü ildəkinə bənzər ssenarini qarşıdakı iki ayda da işə sala bilərmi? Milli Şura proyektinin yenidən hansısa formada dövriyyəyə buraxılması ehtimalı var?

**Politoloq Elşən Mustafayev** "Yeni Müsavat"a bildirdi ki, 2013-cü il prezident seçkisindən öncə Rusiya-Azərbaycan münasibətlərində olan gərginlik kifayət qədər ciddi idi. Hətta hakim partiyanın nümayəndələri açıq şəkildə Rusiyaya qarşı ittihamlar da səsləndirirdilər. Hakimiyyət eşelonunda narahatlıq var idi. Elə bir zamanda şərti olaraq Rusiyanın təzyiq ssenarisi işə salındı və sonradan Rüstəm İbrahimbəyovun namizədliyi ortaya çıxdı. Amma 2013-ün yayında Putinin Bakıya səfərindən sonra vəziyyət dəyişdi və münasibətlərdə olan buzlar əriməyə başladı. Bu gün isə Rusiya və Azərbaycan arasında gərginlik yoxdur. Ona görə də Rusiya tərəfindən seçkilərə bu və ya digər mənada təsir üçün hər hansı səbəb də yoxdur: "Prezident seçkiləri hamı üçün, hətta hakimiyyətdə olan insanların əksəriyyəti üçün gözlənilməz olaraq ertələndi. Adətən seçkilərdən 8-9 ay qabaq seçkiqabağı ab-hava hiss olunurdu və proses seçkilər yaxınlaşana qədər daha da artırdı. İndi isə sıfır seçki mühiti ilə kampaniyaya start verilib. Hesab edirəm ki, hətta istəsələr belə, kənardan bu qədər qısa müddət kəsiyində hər hansı proyekt hazırlayıb dövriyyəyə buraxıla bilməz".

**Politoloq Elxan Şahinoğlu isə bildirdi ki, Rusiyanın yeni proyekt hazırlamağa vaxtı qalmır, köhnə proyekti də dirçəltmək çətindir:** "2013-cü ildə "yaxşı" hazırlaşmışdılar. İlham Əliyevin növbədənkənar seçki qərarı Moskva üçün də sürpriz oldu. Yeni layihə hazırlayıb işə salmaq üçün vaxt azdır. Eyni zamanda hazırda münasibətlərdə gərginlik yoxdur".

❑ **Etìbar SEYÌDAĞA,**
**"Yenì Müsavat"**



# Əjdaha qardaş

Zamin HACI
zaminhaci@gmail.com

“Nə olur-olsun, bizdə hər şey bayramdır, bayramdır, bayram!”
*(Mark Zaxarovun “Əjdahanı öldürmək” filmindən)*

**Məktəb direktoru ilə milli “bayevik” filmimizdə çəkilən aktyorun dialoqu videosuna baxdım. Haqverdiyevin məşhur hekayəti eynilə gözüm önündə canlandı: “- Sən Allah Həsən ağanın qohumusan? - Onda gəl min boynuma!” Hələ bu yaxşı ki, Rasim Balayevin çəkildiyi, aslanla güləşən Beyrək, ərəbləri qırıb-çatan Babək, nə bilim, haqq yolunda dərisi soyulan Nəsimi kimi rolları ifa etməyib. Yoxsa direktoru parçalayardı. Hələ deyir, dövlətimizi qurubdur. Hərçənd davranışlarına baxanda dövlətimizin tam olaraq da qurulub bitdiyini söyləmək müəyyən çətinliklər törədir.**

Ümumiyyətlə, dövlətimizin qurulması, müstəqilliyin əldə olunmasında xidmətlər respublikada hər kəsin dilində əzbərdir. İstənilən şəxsi danışdır, minimum halda Meydan hərəkatını fırlatdığını, SSRİ-ni dağıtdığına görə peşman olduğunu, canım sənə desin, 1989-cu ildə Qorbaçovu Qızıl meydanda it sürütməsi elədiyini və Raisanın yalvarışlarına bağışladığını söyləyəcəkdir. Qalırsan mat-məəttəl ki, ey gidi dünya, bəs bu qəhrəmanlar yurdu 25 ildir 3-4 dılğır ermənin əlində nə cür əsir-yesir qalmışdır, niyə bu pələnglər, drakonlar və sairə təbii-mifik canlılardan ibarət qoşun basıb gedib İrəvanı almamışdır. Əlbəttə, urus qoymur. Yoxsa erməni haranın qoduğudur? Nəsə. Əjdaha işlərimiz çoxdur.

Bu yaxında həmin dövlət qurucularımız arasında yenə diskussiya qızışmışdı. Özü də bunların bəziləri qaçıb gediblər xaricə, 20 ildir orda dövlət qururlar. Yankiləri-zadı xoşbəxt eləyirlər. Bir parası isə nemeslərə ari irqi başa salır. Sözün əsl mənasında dəlixanadır. Təsəvvür elə, 25 il gedib Corc Vaşinqtonun yurdunda guya dissident olasan, ancaq hələ də elədiyin söhbət “filankəs ağ corab geyirdi, behmənkəsin balağı gödək idi, mənim isə kostyumum birbaşa Helsinkidən gəlirdi” tipində olsun.

İnsafən qeyd edim ki, bizim dissident tariximiz elə bu cür faktlarla doludur. Misal üçün, ən bərk gedən dissidentimizi “Nu poqodi” çayxanasında hökuməti tənqid elədiyi üçün tutmuşdular. Deyirmiş multikdəki canavar obrazı bizim Boz qurddur, ruslar onu ələ salmaqla milli kökümüzü qazırlar. Kabinetində isə uçaskovinin portreti tapılmışdı, deyirmiş bir türk oğlunun vəzifədə yüksəlməsi milli ucalığımızdır. Başqa bir məşhur dissident şairə isə Lenin mükafatı, şəhərin mərkəzində malikanə, oğluna prokurorluqda iş vermişdilər. Dəhşət çətin günlər yaşayırdılar, ah, vah.

Bu drakon əhvalatı yadıma Seyran Səxavətin köhnə bir əsərini də saldı. Orda qəhrəman kənddən Bakıya gəlməli olurdu, Bakıdakı ünvanı yaddan çıxardırdı, tək xatırladığı nəsə “Əjdahanın yanı” oriyentiri idi. *(“Azneft” meydanı yaxınlığındakı “Bəhram Gur əjdahanı öldürür” heykəli)*. Taksi sürənə də elə bu cür, “Əjdahanın yanına” sürməyi deyir. Taksiçi isə deyirdi ki, hansı əjdaha, şəhərdə əjdahalar çoxdur. Yəqin ki, müəllif bu yolla partnomenklaturanı, sovet hakimiyyətini tənqid edirdi. Hərçənd bilmirəm ona sonralar milli dissident adı verdikmi. Gec deyil, Anara bir-iki roman da həsr eləsə, ala bilər.

Məktəb direktorunun əjdaha hücumuna məruz qalmasında, məncə, təhsil nazirinin uzun müddətdir yoxluğu da mənfi rol oynayır. İdarəni yiyəsiz, müəllim və direktorları başsız görüblər. Bu problemi təcili həll etmək lazımdır. Elə o drakon müəllimi nazir qoymaq olar. Hərtərəfli uyğun gəlir: dövlət quruculuğunda rolu, aktyorluq qabiliyyəti, ən əsası, dövlətçilik bölgəmizdə doğulması. Üstəlik, deyilənə görə, 3 dənə universitet bitiribdir. Ağzından od püskürməsi də o səbəbdən imiş. Tək drakonluq xassəsi deyil, hər ali məktəb insanı bir qat alovlandırır axı.

İndi söz əlaqədar təşkilatlarındır - əjdaha qardaşı diqqətdə saxlayın.



# Rusiyadan İrəvana hədə kimi ismarış - Sərkisyana seçki zərbəsi

## “Nezavisimaya qazeta” İrəvanda Hitlerin əlaltısına qoyulan abidəyə görə hakim rejimi hədəfə aldı; **Rusiyanın nüfuzlu nəşri:** “Erməni cəlladının əli on minlərlə günahsız rusun qanına batıb”, “Ermənistanda faşizm rəsmi ideologiyaya çevrilir”; işğalçının “can dostu” İrandan isə Bakıya haqsız mesaj gəldi - “İsraillə yaxınlıq edənlər...”

**“Son zamanlar biz tez-tez tarixi təzədən yazmaq və 2-ci Dünya müharibəsinin nəticələrini təhrif eləmək cəhdləri ilə rastlaşırıq. Məqsəd aydındır - Sovet ordusunun Hitler Almaniyası üzərində qələbəsinə kölgə salmaq”. “Yeni Müsavat” xəbər verir ki, bu fikir Rusiya Federasiya Şurasının Sosial siyasət komitəsinin sədr müavini, professor, RF-nin əməkdar həkimi Lyudmila Kozlovanın nüfuzlu Rusiya nəşrlərindən olan “Nezavisimaya qazeta”dakı məqaləsində yer alıb.**

Bir sıra Avropa ölkələrində nasizmin və ona xidmət etmiş isimlərin qəhrəmanlaşdırılmasına hətta rəsmi kurs götürüldüyünü yazan müəllif o sırada Polşanın, İtaliyanın, Bolqarıstanın, Çernoqoriyanın, Ukraynanın, Baltikyanı ölkələrin və... Ermənistanın adlarını çəkib.

**Məqalənin işğalçı ölkəyə aid tənqidi hissəsində deyilir:** “Rusiyanın strateji müttəfiqi Ermənistan isə İrəvanın mərkəzində kollaborasionist, ”3-cü Reyx"lə əməkdaşlıq etmiş Qaregin Njdeyə abidə ucaldıb. Az öncə bu faktı şərh edən Rusiya XİN-i öz bəyanatında bunun “anlaşılan olmadığını” qeyd edib. Bəyanatda həmçinin ümid ifadə edilib ki, rəsmi İrəvanın mövqeyinin əsasında, hər halda, BMT Baş Məclisinin qəbul elədiyi qətnamə duracaq - hansı sənəddə ki, irqçiliyə, ksenofobiyaya və digər bu kimi dözümsüzlük formalarına xidmət edən nasizmin, neonasizmin və onun istənilən təzahürünün qəhrəmanlaşdırılması yasaq edilir".

**Müəllif ardınca yazır:** “Bunu da qeyd etməliyəm ki, İrəvanda Njdeyə abidə qoyulmasının təşəbbüskarları indi də bolqar şəhəri Pliskdə eyni abidəni ucaltmaq istəyirlər. O adama ki, 2-ci Dünya müharibəsinin əvvəllərində Hitler Almaniyası hökuməti ilə əməkdaşlıq edib və erməni əsirləri qarşısında dəfələrlə təbliğati çıxışlar edib, onları SSRİ-yə qarşı silahlı üsyana çağırıb. Deyib ki, ”Almaniya uğrunda həlak olanlar, həm də Ermənistan uğrunda həlak olurlar". Njdenin komandanlığı altında erməni SS legionu neçə-neçə cəza aksiyalarında iştirak edib və 20 mindən çox insanı, əsasən də dinc sakinləri məhv edib. Onun əlləri bizim babalarımızın və ulu babalarımızın qanına batıb!"

**“Nezavisimaya qazeta”dakı məqalə bu cümlələrlə bitir:** “Bu yaxınlarda Rusiya Dövlət Dumasında ”Faşizmin qəhrəmanlaşdırılması və neofaşizmin dirçəlişi ilə mübarizə: qanunverici aspektlər və beynəlxalq təşəbbüslər" mövzusunda keçirilən dəyirmi masada qeyd eləmişdim ki, nasizm və faşizm beynəlxalq müqavilələrə görə, qadağan edilmiş cinayətkar ideologiyalar kimi tanınıb. Odur ki, nazimin qəhrəmanlaşdırılması mahiyyət etibarilə beynəlxalq anlaşmaların pozulmasıdır. Abidələrə münasibət, onların qoyulması və ya sökülməsi - hər bir dövlətin suveren hüququdur. Ancaq hakimiyyətlər təkcə öz ictimaiyyətlərinin mövqeyini deyil, həm də nasizm və faşizmi birmənalı olaraq insana nifrət ideologiyası kimi təsnif eləmiş dünya birliyinin də mövqeyini ciddiyə almalıdır".

*****

Nəzərə alsaq ki, haqqında söz açığımız məqalənin müəllifi sıradan biri yox, Rusiya parlamentinin yuxarı palatasının komitə sədrinin müavinidir, üstəgəl, Rusiyanın digər rəsmiləri və ekspert ictimaiyyəti də *(tanınmış politoloqlar Sergey Markov, Oleq Kuznetsov və b.)* da Moskva üçün, şəxsən prezident Vladimir Putin üçün olduqca həssas olan bir mövzuda Ermənistan rəhbərliyinin ünvanına sərt tənqidlər səsləndiriblər, o zaman məqaləni Sərksiyan rejiminə ünvanlı növbəti hədə-ismarış saymaq lazım gəlir.

Ancaq belə görünür ki, Ermənistan rəhbərliyi Njdenin abidəsi ilə bağlı tənqidlərdən nəticə çıxarmağa tələsmək istəmir. Sərkisyan hakimiyyəti yəqin ki, bu zaman həm də erməni toplumunda faşist əlaltısına olan güclü sevgidən çıxış edir. Lakin qarşıdan prezident və baş nazir seçkiləri gəlir. Apreldə parlamentli üsul-idarəyə keçəcək Ermənistanda məhz baş nazir ən böyük səlahiyyətlərə malik olacaq. İşğalçı ölkədə istənilən səviyyəli seçkilərin nəticələri isə müstəsna olaraq, Moskvada müəyyən edilir. Demək ki, seçki ərəfəsində Sərkisyan “odla” oynayır.

Hərçənd Rusiya - Ermənistanın bölgədə yeganə dost-müttəfiqi deyil. Qonşu və müsəlman İran da dar macalda həmişə işğalçı ölkənin yanında olub. O İran ki, Fələstin torpaqlarının işğalına görə İsraili işğalçı adlandırsa da, nədənsə müsəlman Azərbaycan torpaqlarını on illərdir işğal altında saxlayan Ermənistana daima qucaq açıb və açır. İri İslam ölkələrindən də yalnız İranın prezidenti *(Həsən Ruhani)* Ermənistana səfərlər edib. Ötən ilin dekabrında isə İranın xarici işlər naziri Məhəmməd Zərif İrəvan səfəri zamanı Ermənistanı “bölgədə sülhün və əmin-amanlığın carçısı və təminatçısı” adlandırmışdı.

*****

Yeri gəlmişkən, Moskvadan İrəvana son hədə-ismarışı fonunda Tehrandan da İsraillə bağlı Bakıya mesaj gəlib, həm də haqsız bir mesaj. Belə ki, “Yeni Müsavat”ın məlumatına görə, İran prezidenti Həsən Ruhani yerli və xarici media üçün keçirdiyi mətbuat konfransında hər şeydən danışıb, Amerikanın bostanına daş atıb, Türkiyənin Afrin əməliyyatını tənqid edib və sonda... Bakıya İsraillə bağlı mesaj göndərib.

**Bu haqda politoloq Elxan Şahinoğlu yazıb. Sitat:** “Həsən Ruhani deyib ki, bölgədə kimsə İsrailin İranın düşməni və digər ölkələrin dostu olduğunu düşünürsə, tamamilə səhv edir, İsrail bölgənin əsas düşmənidir və müsəlmanların əsas düşməni məhz sionistlərdir. İran prezidenti bu dəfə bizim bostanımıza daş atıb. Ruhaninin sözlərindən belə çıxır ki, İranın dostluq etdiyi bölgə dövlətlərindən Rusiya və Ermənistan xristian dövlətləri olduqları üçün onların İsraillə əməkdaşlığına göz yuma bilərlər. Bölgənin müsəlman dövləti Azərbaycana isə İsraillə dostluq qadağandır! Zənnimizcə, bölgədə kimsə düşünürsə ki, Ermənistan Azərbaycanın düşməni və digər ölkələrin dostudur, tamamilə səhv edir. Ermənistan bölgənin əsas düşmənidir və müsəlmanların əsas düşməni məhz ermənilərdir. Çünki müsəlmanları qətl edib və məscidləri dağıdıb. Bu da bizdən Tehrana mesaj olsun”.

**Politoloqun faşizmi rəsmi ideologiyaya çevirmiş işğalçı Ermənistanın “can dostu” İrana ünvanlı bu mesajına etirazımız yoxdur...**

❑ “Yeni Müsavat”,
❑ siyasət şöbəsi

YENİ MÜSAVAT
N 30 (6919) 8 fevral 2018

# Azərbaycan iqtisadi azadlıq indeksində 67-ci oldu

## Qanunvericilikdə müsbət dəyişikliklər var, bəs reallıq?

**Dünyanın aparıcı analitik mərkəzlərindən hesab olunan “Heritage Foundation” institutu və “The Wall Street Journal” nəşri tərəfindən hazırlanan ənənəvi illik hesabatda göstərilir ki, Azərbaycan ötən il iqtisadi azadlığın səviyyəsinə görə 180 ölkə arasında 67-ci sırada qərarlaşıb.**

Hesabata istinadən bildirilir ki, nəticədə Azərbaycan “Qismən azad” ölkələr qrupuna daxil edilib. “İqtisadi Azadlıq İndeksi-2018" adlandırılan bu hesabatda biznes, maliyyə, ticarət, əmək, investisiya, korrupsiya və digər sahələr üzrə ayrı-ayrı ölkələrdə iqtisadi azadlıqların səviyyəsi göstərilib. Qeyd edək ki, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun açıqladığı statistik rəqəmlər əsasında aparılan araşdırmalarda ölkələrin göstəriciləri faizlə ifadə olunub. Hesabatda Azərbaycanın 2018-ci ildə 2017-ci illə müqayisədə 1 pillə irəlilədiyi göstərilib. Belə ki 2017-ci ilin hesabatında Azərbaycan 180 ölkə arasında 67-ci sırada qərarlaşıb.

Məlumat üçün onu da bildirək ki, keçmiş SSRİ və region ölkələri arasında ən yaxşı vəziyyət Estoniyada qeydə alınıb. Estoniya 180 ölkə arasında 7-ci sırada qərarlaşaraq “əsasən azad” ölkə hesab olunub. Keçmiş SSRİ və region ölkələrində Gürcüstan 16-cı, Litva 19-cu, Latviya 28-ci, Qazaxıstan 41-ci, Ermənistan 44-cü, Türkiyə 58-ci, Azərbaycan 67-ci, Qırğızıstan 78-ci, Moldova 105-ci, Tacikistan 106-cı, Rusiya 107-ci, Belarus 108-ci, Ukrayna 150-ci, Özbəkistan 152-ci, Türkmənistan 169-cu sırada qərarlaşıb. Onu da bildirək ki, iqtisadi cəhətdən ən azad ölkələr Honq Konq, Sinqapur və Yeni Zelandiya hesab olunur. Qeyri-azad ölkələrin ilk 3-lüyünə isə Şimali Koreya, Venesuela və Kuba daxil olub.

Bəs görəsən, Azərbaycanla bağlı nəticə reallığı əks etdirirmi? Beynəlxalq institutun hesabatı nə dərəcədə etibarlıdır? Azərbaycanın bir pillə irəliləməsində son illərdə aparılan islahatların rolu varmı?

**“Yeni Müsavat”ın suallarını cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, “Heritage Foundation” kifayət qədər nüfuzlu və hesabatları ilə qlobal investorların diqqətini cəlb edən fondlardan biridir:** “Bu cür fondlar tərəfindən açıqlanan hesabatlar hər zaman investorların diqqət mərkəzində olur. Azərbaycan iqtisadi azadlığına görə azadlıq dərəcəsi 60-70 faiz olan ölkələr sırasındadır. Bu, ölkəmiz üçün müsbət haldır. Bir pillə irəliləməyimizin səbəbi isə hüquqi sferadakı dəyişikliklər, iqtisadiyyatın şaxələndirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan layihələr, ”Strateji Yol Xəritəsi"dir. Əgər struktura diqqət etsək görərik ki, Azərbaycanın xarici borc yükü, vergi yükü, ÜDM-in artım tempi kimi indikatorlara da yer verilir. Bu indikatorlar üzrə Azərbaycanda ötən illərlə müqayisədə irəliləmə var. Bu da ayrı-ayrı sektorlarda güzəştli şərtlərlə fəaliyyətin təmin edilməsindən qaynaqlanır. Bildiyimiz kimi, iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədi ilə müxtəlif təşviqedici mexanizmlərin tətbiqinə qərar verildi. Bunlardan da müəyyən bir qismi məhz vergi güzəştlərinin tətbiq edilməsinə aid idi. Bu da son nəticədə vergi yükünü cüzi də olsa azaltdı".

**İqtisadçının sözlərinə görə, hesabatda kifayət qədər narahatedici məqamlarda da qeyd olunub:** “Xüsusilə də qanunun aliliyi prinsipi üzrə narahatlıqlar hesabatda öz əksini tapıb. Bundan başqa, korrupsiyaya meyllilik də hesabatda qeyd olunan məqamlardan biridir. 2017-ci il ərzində Avropa Şurasında qaldırılan məsələlər də hesabata daxil edilib ki, bu da Azərbaycanın mövqeyinə öz mənfi təsirini göstərir. Gələcəkdə bu istiqamətlərdə addımların atılmasına ehtiyac var. Azərbaycan mülkiyyət hüquqlarının vəziyyəti 100 ballıq sistemlə 53,6 balla qiymətləndirilib. Bu, kifayət qədər aşağı göstəricidir. 2017-ci il hesabatı ilə müqayisədə bu istiqamətdə irəliləmə olduğu göstərilsə də, qlobal standartlara görə bu göstəricinin zəif olduğunu deyə bilərik. O cümlədən hüququn aliliyi kimi məsələlərdə də ölkəmizin aşağı göstəricilər aldığını görə bilərik. İrəliləyişlərin böyük əksəriyyəti məhz qanunvericilikdə edilmiş dəyişikliklərdən qaynaqlanır. Qanunvericiliyin tətbiqi də növbəti bir problemdir. Növbəti hesabatlarda qanunvericiliyin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı göstəriciləri də görə bilərik. Bu hesabatda investisiya azadlığı, ticarət azadlığı kimi məsələlər də qeyd olunub. Hesabata görə, xüsusilə də ticarət azadlığının əhəmiyyəti Azərbaycan iqtisadiyyatı üçün çox yüksəkdir. Ümumiyyətlə götürəndə, bu, Azərbaycanda ÜDM-in 90 faizi həcmində qiymətləndirilib. Tariflərin yüksək olması da burada qeyd olunub. Bu problemin Azərbaycan iqtisadiyyatına ziyan vuracağı, inkişafın zəifləməsinə səbəb olacağı da qeyd olunur”.

**Rəşad Həsənov onu da vurğuladı ki, hüquqi müstəvidə həllini tapan məsələləri real iqtisadiyyatda da görmək istəyiriksə, onların tətbiqi mexanizmi üzərində işləməliyik:** “Hesabatda 4 istiqamət üzrə müxtəlif məsələlərə toxunulur. O fikri bir daha qeyd etmək istəyirəm ki, hesabat kifayət qədər nüfuzlu sənəd hesab olunur və bu hesabatda Azərbaycanın mövqeyinin irəliləməsi növbəti dövrlərdə bu istiqamətdə təşəbbüsləri daha da təşviq edə bilər. Azərbaycanın beynəlxalq hesabatlarda reytinqinin yüksəldilməsi ilə bağlı xüsusi komissiya var. Bu komissiya 2018-ci ildə qanunvericiliyin təkmilləşdirilməsi üzərində işləyir. Bu da növbəti ildə hesabatda Azərbaycanın mövqeyini gücləndirə bilər. Amma bütövlükdə götürəndə bu hesabatlarda göstərilən, hüquqi müstəvidə öz əksini tapan məsələlərin real iqtisadiyyatda, əhalinin rifahında əks olunmasını istəyiriksə, bu zaman qəbul edilən qərarların icrası mexanizmləri üzərində də dayanmalıyıq. Ancaq bu halda biznes mühiti liberallaşma istiqamətində dinamika nümayiş etdirməklə ölkə iqtisadiyyatında mövcud asılılıqlardan və çətinliklərdən xilas ola bilər”.

❑ **Nərgiz LİFTİYEVA,**
❑ **“Yeni Müsavat”**



# Amerika “ikinci Putin siyahısı”nı açıqlaya bilər

## Bu dəfə bir sıra ölkələrdəki Kreml rəhbərinə yaxın olan siyasətçilər və iş adamları hədəfdə olacaq

**ABŞ-da “Amerikanın əleyhdarlarına qarşı sanksiyalar vasitəsilə müqavimət” (Countering America’s Adversaries Through Sanctions Act - CAATSA) haqqında qanun əsasında hazırlanan siyahı Rusiya hakim dairələri və biznes elitasında böyük təşvişə səbəb olub.**

Xatırladaq ki, CAATSA Ukrayna hadisələrinə, həmçinin ABŞ-da 2016-cı ildəki prezident seçkilərinə müdaxiləyə görə Rusiyanın cəzalandırılmasını nəzərdə tutur. İyunda qəbul edilən qanunu prezident Donald Tramp tənqid etmişdi.

CAATSA amerikalıların Rusiyadakı energetika layihələrinə yatırımlarının həcmini məhdudlaşdırır. O, həmçinin ABŞ şirkətlərinin Rusiyada biznes fəaliyyətini çətinləşdirir.

ABŞ hökumətinə əsasən, CAATSA qanununa görə, Rusiya ilə bir sıra xarici şirkətlər arasında nəzərdə tutulan çox milyardlıq sövdələşmələr artıq ləğv olunub.

Qnun qəbul edildikdən sonra Konqres Maliyyə Nazirliyindən Rusiya prezidenti Vladimir Putinlə yaxın əlaqələrin bəhrəsini görənlərin adlarının siyahıda olmasını istəmişdi. Adları siyahıya salınan şəxslər gələcəkdə sanksiyalara məruz qala bilər.

Onu da qeyd edək ki, yanvarın sonunda açıqlanan siyahıda 214 nəfərin adı var. Onlardan 118 nəfər Rusiya hakimiyyətində təmsil olunan şəxslər, 96 nəfər isə biznes oliqarxlardır. Siyahı demək olar ki, adları “Forbes” jurnalının siyahısına düşən Rusiya mənşəli bütün oliqarxları əhatə edir. Onlar arasında Rusiyada var-dövlət toplayan Azərbaycan əsilli 4 milyarder də var. Bunlar Fərhad Əhmədov, Qod Nisanov, Vahid Ələkbərov və Araz Ağalarovdur.

Siyahı açıqlanan zaman onun daha bir hissəsinin məxfi saxlandığı bildirilmişdi. Bəzi mənbələr sənədin məxfi saxlanılan hissəsində Putin hakimiyyətinin korrupsiya əməlləri, onların iştirakçısı olan şəxslər barədə də detallı məlumatların olduğunu bildirirdilər. Bu günlərdə isə məlum olub ki, “Putin siyahı”sı adı verilən sənədin açıqlanmayan hissəsində Rusiya prezidentinə yaxın olan şəxslərin daha bir qrupunun adı keçir. Əgər birinci siyahı tam olaraq Rusiya vətəndaşı olan şəxsləri əhatə edirdisə, “ikinci Putin siyahı”sında diqqət başqa ölkələrin vətəndaşlarına cəmləşib. Sənədə müxtəlif ölkələrdə Putin hakimiyyətinə, birbaşa onun özünə bağlı olan şəxslərin adları daxil edilib. Bura xüsusilə postsosialist məkanına daxil olan ölkələrdəki rusiyayönümlü qüvvələrin rəhbər şəxsləri, Putinə simpatiya bəsləyən, o və yaxın çevrəsi ilə sıx əlaqədə olan iş adamları daxildir.

“İkinci Putin” siyahısında əsasən Bolqarıstan, Serbiya, Türkiyə və digər bir neçə ölkənin vətəndaşlarının cəmləşdiyi, xüsusilə Rusiyada biznes quran iş adamlarının adlarının ora salındığı bildirilir. Bundan əlavə, həmin ölkələrdə müxtəlif rəhbər vəzifələri tutan rusiyameyli siyasətçilərin də siyahıya salındığı iddia olunur.

Verilən məlumatlara görə, yaxın vaxtlarda - ən azı Rusiyadakı prezident seçkilərinədək ikinci siyahı da ictimaiyyətə açıqlanacaq.

❑ **TURQUT,**
❑ **“Yeni Müsavat”**



# Üç ömürlük OMON-çu məhbus azadlığa çıxa bilərmi?

**Elçin Sadıqov:** "Problemin həlli ilə bağlı irəliləyiş yoxdur"
**Mirvari Qəhrəmanlı:** "Biz hüquq müdafiəçiləri olaraq çalışırıq ki, onlar azadlığa buraxılsınlar"



**Qobustan həbsxanasında saxlanılan üç OMON-çu məhbusdan ikisinin-Səfa Poladov və Arif Kazımovun saxlanma şəraitində ciddi problemlər yaranıb. Hər iki məhbus bir aya yaxındır dəmirin üstündə yatır. Hətta iş o yerə çatıb ki, A.Kazımov intihar etməyə cəhd edib, lakin bunun qarşısı həbsxana əməkdaşları tərəfindən alınıb.**

**OMON-çu məhbusların vəkili Elçin Sadıqov** "Yeni Müsavat"a açıqlamasında dedi ki, aidiyyəti qurumlara bununla bağlı müraciət ünvanlasa da, nəticəsi olmayıb: "Etdiyimiz müraciətlər hələ də bir nəticə verməyib. Yaxınları həbsxana rəisinin qəbuluna girməyə çalışsalar da, buna nail ola bilmirlər. Hələ ki problemin həlli ilə bağlı heç bir irəliləyiş yoxdur. Bu sərt rəftarla bağlı heç bir hüquqi əsas gətirilmir. Bununla bağlı açıq müraciətlər etsək də, heç bir araşdırma hələ ki aparılmır. Heç ombudsman da gedib onlarla görüşməyib. Kameralarını dəyişib şimal tərəfə köçürüblər. Soyuq hava şəraitində orada yaşamaq mümkün deyil. Yataqları da, yer də dəmirdəndir. Həbsxanada axtarış aparılıb və bu zaman Arif Kazımovda telefon aşkarlanıb, hansı ki köhnə bir telefondur, istifadəyə yararsızdır. Buna görə cinayət işi başlanılıb. Bunun təsiri ilə onların kameraları şimal tərəfə dəyişdirilib. Müraciətlərimizi davam etdiririk. Bunlar nəticə verməsə, məhkəməyə də müraciət edəcəyik".

Qeyd edək ki, gələn ay veriləcək əfv sərəncamı və mayda qəbul olunacağı gözlənilən amnistiya aktı ilə bağlı ömürlük məhbusların da məsələsi gündəmə gəlib. Onların bəzilərinin qarşıdakı aylarda azadlığa buraxıla biləcəyi bildirilir. Heç şübhəsiz ki, bunların içərisində öndə gələn Elçin Əmiraslanov, Arif Kazımov və Səfa Poladov kimi OMON-çulardır. Azadlığa buraxılmasalar belə, bəzi ömürlük məhbusların cəzalarının illə əvəzlənəcəyi barədə də söz-söhbətlər gəzir.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı ölkəmizdə böyük əfv və amnistiya aktının gözlənildiyini söylədi:** "Azərbaycan praktikasında belə bir təcrübə var ki, ömürlük cəza alanlar müəyyən zamandan sonra azad olunublar. Onların ictimaiyyət üçün təhlükəli olmadıqlarını da görmüşük. Biz hüquq müdafiəçiləri olaraq, daim onların adlarını veririk və çalışırıq ki, azadlığa buraxılsınlar. Məhbuslarla bağlı müxtəlif siyahılar var və hər tərəfin də öz yanaşması mövcuddur. Azərbaycanda qarşıdakı aylarda çox mühüm hadisələr olacaq, önəmli yubileylər var. Bütün bunlarla bağlı məhbuslarla əlaqədar da ciddi qərarların veriləcəyinə ümidlər böyükdür. Qarşıdan eyni zamanda prezident seçkisi də gəlir. Bütün bunlardan istifadə edərək, məhbus ailələri dayanmadan məktublarını yazmalıdırlar. Onların məsələlərini işıqlandırmaqda ciddi problemlər var. Məsələn, OMON-çu məhbusların məsələsini sizin qəzetdən başqa heç bir mətbuat orqanı qaldırmır. Nə olardı ki, digər mətbu orqanlar da onların məsələsini diqqətdə saxlayardılar. Unutmaq olmaz ki, belə məsələləri ən çox ictimailəşdirən, diqqətdə saxlayan mətbuat olur. Çalışmaq lazımdır ki, bu ərəfədə bu məsələ gündəmdən düşməsin. İctimai təzyiqləri artırmaq prosesləri sürətləndirə bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

---

**İsmayıllı hadisələrindən 5 il ötür. 2013-cü il yanvarın 23-də İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nizami Ələkbərovun oğlu Elxan Ələkbərovun və başçının qardaşı, o dövrdə nazir olan Füzuli Ələkbərovun oğlu Vüqar Ələkbərovun rayonda bir qəza üzərindən taksi sürücüsünü döyüb xəsarət yetirməsi yerli sakinlərin sərt reaksiyasına səbəb olmuşdu. Başçının oğlu və qardaşı oğlunun bir gözü şikəst olan taksi sürücüsünə qarşı zorakılığı onların özlərinin döyülməsi ilə nəticələnmişdi. İsmayıllının girəcəyində yerləşən və Ələkbərovlara məxsus olan "Çıraq" hotelinə qaçan əmiuşaqları oradan başlarının dəstəsi ilə qayıtmışdılar.**

# İsmayıllı hadisələrinin 5 ili-həbsdə qalan yalnız odur...

## Bakıdan 2 siyasətçinin İsmayıllıya gəlib meydanda peyda olması heç nəyi dəyişə bilməzdi, amma onların həyatı elə dəyişdi ki....

Bu isə hadisə yerində olan yerli sakinlərlə onlar arasında dava-dalaşın böyüməsinə səbəb olmuşdu, ümumilikdə rayon əhalisi haqda xoşagəlməz ifadələrin işlədilməsi isə bütün İsmayıllını ayağa qaldırmışdı. Dava-dalaş əraziyə xeyli rayon sakininin yığışması və "Çıraq" hotelinə qaçan əmiuşaqlarının təqibinə gətirib çıxarmışdı. Qısa müddətdə hotelə, hotelin ətrafındakı bir-birindən bahalı maşınlara od vurulmuş, yaxınlıqda yerləşən Nizami Ələkbərovun evi daş-qalaq edilmişdi. Həyətindəki nəqliyyat vasitələri isə odlanmışdı. Rayonda vəziyyət son dərəcə ağırlaşmış, döyülən başçının oğlu və qardaşı oğlu rayondan Şamaxı xəstəxanasına, oradan isə Bakıya qaçırılmışdılar.

Sakinlər olaydan sonra icra başçısının istefası tələbi ilə aksiyalara başlamışdı. Yanvarın 24-nə keçən gecə Bakıdan İsmayıllıya təhlükəsizlik qüvvələri yeridildi. Həmin gün İsmayıllı şəhərində yerli əhali ilə təhlükəsizlik qüvvələrinin qarşıdurması baş verdi. İstiot qazı və səs bombaları, yüksək təzyiqli su şırnağı vuran maşınlarla etirazçılar şəhərin mərkəzi meydanından sıxışdırılıb çıxarıldılar. Yanvarın 24-də səhər artıq meydanda etirazçılar gözə dəymirdi, şəhərin mərkəzi meydanı və meydana gələn bütün yollarda postlar qoyulmuşdu. Meydanın özü isə mühasirəyə alınmışdı. Rayon icra hakimiyyəti, polis idarəsi, prokurorluq binaları da məhz həmin meydanın ətrafında yerləşirdi. Ara-sıra icra başçısı Nizami Ələkbərov, polis idarəsinin rəisi Nizami Qocayev jurnalistlərin qarşısına çıxıb sualları cavablandırırdılar. Başçı hadisənin oğluna, qardaşı oğluna görə baş verdiyini inkar edir, "Çıraq" hotelinin onlara aid olmasını da yaxına buraxmırdı. Bununla belə, İsmayıllı hadisələrindən dərhal sonra icra başçısı Nizami Ələkbərov vəzifəsindən azad edildi, 10 ay sonra isə qardaşı Füzuli Ələkbərov nazir postundan uzaqlaşdırıldı.

***

Rayona yeridilən təhlükəsizlik qüvvələrinə Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, general Cavanşir Məmmədov rəhbərlik edirdi. Hadisə baş verəndən dərhal sonra İsmayıllıya ezam edilən bu sözlərin müəllifi də bir neçə dəfə Cavanşir Məmmədovdan münasibət öyrənmək, vəziyyətin nə yerdə olduğunu xəbər almağa cəhd etmişdi. General danışmır, əli ilə ona tərəf uzatdığımız diktofonu kənara çəkməklə hər hansı bir açıqlama verməkdən yayınırdı. Meydan boş, ətrafı da tam mühasirəyə alınmışdı. Cavanşir Məmmədovun şalvarındakı enli qırmızı zolaq və ətrafında kostyumda gəzişən dəstə hər kəsin diqqətini cəlb edirdi. Ara-sıra əyinlərində üzərində "press" sözləri yazılan jiletlərdə olan mətbuat nümayəndələri generala yaxınlaşır, o da sanki and içibmiş kimi ağzından bir kəlmə çıxarmırdı. Günortadan sonra idi, artıq ara sakitləşməyə doğru gedirdi. Meydan rayonun ortasında, əsas dükanların yerləşdiyi küçələri birləşməsində yerləşdiyindən sakinlər artıq heç nə olmamış kimi əraziyə gəlir, alış-veriş edib meydanın ortasından keçməklə evlərinə yollanırdılar. Meydanı mühasirəyə alan təhlükəsizlik qüvvələri də onlara elə də mane olmurdular. Redaksiyaya gecədən səhərə, səhərdən günortaya qədər xeyli foto-video material yollamışdıq deyə meydanın ətrafında var-gəl edib hadisələrin hansı axarla inkişaf edəcəyini müşahidə edirdik. Bayaqdan meydanda asta addımlarla yeriyən Cavanşir Məmmədovun cəld hərəkətləri diqqətimi cəlb etdi.

***

Həmin anı hadisələrin siyasiləşməsi istiqamətində dönüş nöqtəsi də adlandırmaq olar. Çünki ona qədər tutulanları sadəcə cərimələyib, qulaqburması verib yola salırdılar. Etirazçılara qarşı gecə olduğu kimi istiot qazı, səs bombasından istifadə edilmirdi. Əhali arasında böyük hörmət sahibi olan polis rəisi Nizami Qocayev küçələri gəzib-dolaşır, sakinləri evlərinə qaytarmağı bacarırdı. Xüsusi gərginlik ocağı da artıq yox idi. Belə bir vaxtda Bakıdan 2 siyasətçinin İsmayıllıya gəlib meydanda peyda olmaları heç nəyi dəyişə bilməzdi. Onları uzağı polis həbs edə bilərdi, o da baş verdi.

Generalın əlini tuşladığı istiqamətə baxdım. Artıq həmin istiqamətə Cavanşir Məmmədovun ətrafındakı idmançı görkəmli kostyumlular qaçırdı. "Silahımı" - fotoaparatı açıb həmin istiqamətə çatanda artıq kostyumlular Tofiq Yaqublunun qollarından tutmuşdular, bir neçəsi də qarşımızı kəsib foto, video çəkməyə mane olmağa çalışırdı. Bir qismi də meydanın digər istiqamətinə qaçıb İlqar Məmmədovu saxladılar. Sonradan xəbər gəldi ki, Cavanşir Məmmədovun göstərişinə əsasən hər 2 şəxs rayon polis şöbəsinə, oradan da müşayiət altında Bakıya qaytarılıb sərbəst buraxılıblar.



İlqar Məmmədov

Yeni Tofiq Yaqublu ilə İlqar Məmmədov istəsəydilər belə meydanda kimlərisə etiraza çağıra bilməzdilər. Çünki İsmayıllı hadisələri bir neçə saatın içində baş verib və yekunlaşmışdı, meydan boş idi.

Növbəti günlərdə REAL sədri İlqar Məmmədov, Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublu istintaqa çağırıldılar. Tofiq Yaqubluya və İlqar Məmmədova Cinayət Məcəlləsinin 220.1-ci (zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə) və 315.2-ci (hakimiyyət nümayəndəsinə zor tətbiq etmə və ya müqavimət göstərmə) maddəsi ilə ittiham irəli sürüldü.

2014-cü ilin martında Şəki Ağır Cinayətlər Məhkəməsi İlqar Məmmədovun 7 il, Tofiq Yaqublunun 5 il, 16 rayon sakinin isə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmələri haqda hökm çıxardı. Məhkəmə İlqar Məmmədovla Tofiq Yaqublunun İsmayıllı hadisələrinin təşkil etmələri haqda ittihamları təsdiq edən hər hansı sübutun, dəlilin yoxluğuna da əhəmiyyət vermədi.

Tofiq Yaqublu 2016-cı ilin martında azadlığa çıxsa da, İlqar Məmmədov hələ də həbsdədir. Bu gün İsmayıllı hadisələrinə görə həbsdə qalan yeganə şəxs də ilqar Məmmədovdur. Beynəlxalq təşkilatlar onu "vicdan məhbusu" kimi tanıyıblar.

2014-cü ilin mayında Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) İlqar Məmmədovun həbsi və həbsxanada saxlanması ilə Avropa İnsan Hüquqları Konvensiyasının bir çox müddəalarını, o cümlədən azadlıq və şəxsi toxunulmazlıq hüququ, ədalətli məhkəmə hüququ və təqsirsizlik prezumpsiyası prinsipi haqqında 5.1, 5.4 və 6.2-ci maddələrini pozduğunu tanıyıb. Məhkəmə İlqar Məmmədovun hər hansı dəlil olmadan saxlandığı qənaətinə gəlib. Avropa Şurası (AŞ) Nazirlər Komitəsi dəfələrlə Azərbaycan hakimiyyətini AİHM-in Məmmədovun işi üzrə qərarını icra etməyə çağırıb.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (6919) 8 fevral 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Putin-Əliyev anlaşması Minsk Qrupunun fəaliyyətinə son qoya bilər"

## Qarabağ probleminin tənzimlənməsini öz üzərinə götürən, lakin fəaliyyətsizliyi ilə diqqət çəkən "üçlük" Bakıda növbəti görüşlər keçirdi, nəticəyə isə ümid yoxdur; **Zahid Oruc:** "Moskva və Bakı hansı addımları atacaq, əsas sual budur..."

**ATƏT-in Minsk Qrupunun həmsədrləri Azərbaycana növbəti dəfə səfər ediblər. Fevralın 6-da Azərbaycan prezidenti İlham Əliyev qurumun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib. Bu barədə Azərbaycan prezidentinin mətbuat xidməti məlumat yayıb.**

Görüşün müzakirə mövzusu barədə ətraflı məlumat verilmədiyindən diplomatların bölgəyə növbəti səfərində əsas məqsədin nədən ibarət olduğu bəlli deyil. Öncə bildirilib ki, səfərdə məqsəd münaqişənin həlli üzrə hazırda aparılan intensiv və məntiqi əsaslı danışıqlara dair müzakirələrin davam etdirilməsidir. Diqqətçəkən bu oldu ki, ABŞ-dan olan həmsədr Endrü Şoferi hələ fevralın 3-dən Bakıya gəlmişdi. Amerikali həmsədr və ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta bu günlərdə Masazır qəsəbəsində məskunlaşan, Zəngilandan olan məcburi köçkünlərlə də görüşdülər. Diplomatik mənbələrdən bildirilmişdi ki, diplomat Azərbaycan hökuməti ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinə dair müzakirələri davam etdirmək üçün paytaxtımıza gəlib. Köçkünlərlə diplomatların görüşündə bildirilib ki, Qarabağ münaqişəsi nəticəsində tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətraf 7 rayon işğal olunub, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Qonaqların diqqətinə çatdırılıb ki, nüfuzlu beynəlxalq qurumların Ermənistanın işğalçılıq siyasətini pisləyən, dərhal və qeyd-şərtsiz işğal olunan Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən qərar və qətnamələrinin olmasına baxmayaraq, işğalçı ölkə bunların heç birinə əməl etmir.

Həmsədr bu arqumentlərin əvəzində heç nə deməyib. ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta isə bildirib ki, rəsmi Vaşinqton münaqişənin dinc yolla həllinin tərəfdarıdır və bu istiqamətdə səylərini artıracaq. Hər halda, buna bənzər açıqlamaları az eşitməmişik. Lakin budəfəki situasiya fərqli olduğundan hansısa dəyişikliklərin baş verəcəyi haqda təxminlər səslənir.

**Eyni vaxtda ABŞ dövlət katibi müavininin müşaviri, xanım Bricet Brinkin Azərbaycana səfər etməsi də diqqət çəkir. Düzdür, bəzi müşahidəçilər bunu ABŞ-Azərbaycan münasibətlərindəki yeni mərhələ, yaxud qarşıdakı prezident seçkiləri ilə əlaqələndirir. Ancaq amerikalı həmsədrin səfirlə birgə köçkünlərlə görüşməsi, həmçinin xanım Bricet Brinkin Qarabağla bağlı bəyanatı ondan xəbər verir ki, Vaşinqton bu yöndə fəaliyyətini artırmaq niyyətindədir.**

**"Dağlıq Qarabağ münaqişəsinin 20 ildən artıq uzanması, həqiqətən uzun müddətdir"- xanım Bricet Brink deyib. O bildirib ki, ABŞ münaqişənin sülh yolu ilə həllini güclü şəkildə dəstəkləyir: "Bildiyiniz kimi, Minsk Qrupu həmsədrləri Bakıdadır. Onların arasında amerikalı həmsədr də var. Biz münaqişənin sülh yolu ilə həllini dəstəkləyirik və bu məqsədə çatmaq üçün səylərimizi davam etdirəcəyik"** - diplomat əlavə edib.

**Deputat, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə məsələləri komitəsinin üzvü Zahid Oruc** "Yeni Müsavat"a bildirdi ki, həmsədrlərdən öncə Birləşmiş Ştatların dövlət katibliyinin nümayəndəsi Bricit Brinkin regiona səfəri diqqətçəkən hadisədir: "Ağ Ev Tramp ətrafında yaradılan səddi yarıb, nəhayət, Cənubi Qafqaza xüsusi diqqət ayırmağa çalışır. Əlbəttə, keçmiş sovet məkanını yaxşı tanıyan və dövlətlərarası münaqişələrin tarixinə yaxşı bələd olan xanım diplomata hansı tapşırıqların verildiyini yalnız təxmin etmək olar. Görünür, rəsmi Vaşinqton təşəbbüslərini bir qədər artırmaq niyyətindədir. Lakin Bakıda olarkən məcburi köçkünlər məsələsinə fokus edilməsi belə bir qənaət yaradır ki, son aylar Rusiyanın Qarabağ müstəvisində müəyyən dəyişikliklərə əl atacağı barədə xəbərlər, işğal altındakı torpaqların kiçik bir hissəsinin azad edilməsi fonunda Moskva-Bakı arasında yaxınlaşmanın dərinləşəcəyinə dair versiyalar Qərb tərəfindən ciddiyə alınır və kəşfiyyat məlumatları əsasında diplomatlar aktivliyi xeyli artırıblar. Digər tərəfdən, rəsmi Vaşinqton Ermənistanda dövlətin idarəetmə formasının dəyişməsindən sonra "legitim hakimiyyət orqanı kim olacaq" sualına da aydınlıq gətirmək istəyir".

**Z.Oruc qeyd etdi ki, hər iki ölkədə keçirilən seçkilərin nəticəsi bütün tərəflər üçün önəmlidir:** "Qarabağ cəbhəsində hadisələrin hansı ssenari üzrə inkişaf edəcəyi də seçkilərin gedişi və nəticələri ilə birbaşa bağlıdır. Rusiya, Fransa və Amerika Qafqazda yeni ultrapatriot qüvvələrin müharibə partiyası sifətində meydana çıxmasını istəmir. Ona görə də Bricit Brinki İlham Əliyevlə görüşə vadar edən səbəblər neft-qaz razılaşmalarının taleyi ilə yanaşı, Qərblə münasibətlərin necə davam etdiriləcəyi barəsində zəmanətlərə malik olmaqdır. Ona görə də həmsədrlər maksimum şəkildə seçkilər keçirilən dövrdə təmas xəttində gərginliyi artırmamaq, hərbi manevrləri bir qədər azaltmaq və savaş ritorikasını səngitmək istəyir".

**Deputat xatırlatdı ki, XİN rəhbəri Elmar Məmmədyarov son danışıqları "kreativ" adlandırıb:** "Yəqin xarici işlər naziri, nəhayət, erməni tərəfinin israr etdiyi müşahidə missiyası və qurğularının bölgəyə gətirilməsi uğrunda apardığı mübarizənin səmərəsizliyini dərk etməsini nəzərdə tutur. Lakin ehtimal olunan mühüm məsələlərdən biri də apreldən sonrakı vəziyyətin proqnozlaşdırılan olmasıdır. Bir çox beynəlxalq ekspertlər, seçki dövründə gedilməsi çətin olan güzəştlərin gələcəkdə Azərbaycan ordusu tərəfindən zorla alına biləcəyi versiyasını daha çox qabardırlar. Yəni prezident İlham Əliyev bütün beynəlxalq ictimai fikri ona yönəldir ki, bufer zonası adlanan konkret ərazilərdə hərbsizləşdirmə əməliyyatı aparır və onun Şuşada yaşayan ermənilərin təhlükəsizliyi ilə birbaşa əlaqəsi yoxdur. Belə olan təqdirdə, Putin və Əliyev arasında razılaşma Minsk Qrupunun fəaliyyətinə son qoya bilər. Hər halda, regional geopolitika tam Qərbin, İranın, Türkiyənin və Rusiyanın nəzarəti altına keçməyib. Ona görə də həmsədrlərin səfəri hətta növbətçi xarakter daşıya, gələcək prezident-baş nazir arasında görüşlərə hesablana bilər. Lakin əsas məsələ üst qatda cərəyan edir. Hər üç dövlət tərəflərdən müharibə olmayacağına dair ölkə rəhbərlərindən zəmanət alandan sonra Moskva və Bakı hansı addımları atacaq? Bax, əsas sual budur".

İstisna deyil ki, Bakı görüşlərində Minsk Qrupunun həmsədrləri ATƏT-in müşahidə missiyasının sayının artırılmasının "zəruriliyindən" bəhs edəcəklər. Məlumdur ki, ermənilərin maraqlarına cavab verən bu addım Azərbaycanı qane etmir. Rəsmi Bakının mövqeyi budur ki, Ermənistan təmas xəttində müşahidəçilərin sayının artırılması halından status-kvonun qorunub-saxlanması məqsədilə sui-istifadə etməyəcəyinə dair öhdəlik götürməlidir. Həmsədrlərin görüşlərinin nə ilə bitəcəyi yəqin ki, yaxın günlərdə bəlli olacaq.

**Politoloq Arzu Nağıyev isə "Yeni Müsavat"a bildirdi ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri deklorativ bəyanatlardan əlavə heç bir addımlar atmır:** "Son qərar kimi təmas xəttində müşahidəcilərin sayını artırmağa çalışırlar. Bu isə Azərbaycan tərəfi üçün hər hansı bir müsbət addım kimi sayıla bilməz. Çünki təmas xəttinə diqqəti artırmaq ilk növbədə saxta sərhəd çəkmək deməkdir. Belə bir addım isə separatçı qurumun tərəf kimi qəbul etdirilməsi üçün atılır. Azərbaycan bunu heç vaxt qəbul etməyəcək. Minsk Qrupunun ABŞ-dan olan həmsədrinin qaçqın soydaşlarımızla görüşündən də məlum oldu ki, ərazilərlə bağlı konkret bir fikir irəli sürülmür. Ərazi bütövlüyümüzlə bağlı bəyanatlar səslənsə də, konkret addımlarla bağlı bəyanatlar verilmir, hətta müşahidəçilərin sayının niyə artırılması da sual kimi açıq qalır. Buna görə də münaqişənin həlli ilə bağlı optimist fikirlər təəssüf ki, yoxdur. Bununla yanaşı, müəyyən aktivlik müşahidə olunur, görüşlər keçirilir. Getdikcə hiss olunur ki, 2016-cı ilin aprel hadisələrinə bənzər antiterror əməliyyatları qaçılmaz ola bilər. Ermənilər seçki ərəfəsində yəqin ki, təxribatlar edəcəklər və bunu bizim tərəfin etdiyini dünya ictimaiyyətinə çatdırmağa çalışacaqlar. Buna görə də hər cürə təxribata hazır olmaq lazımdır".

*****

Bu arada İsveçrə Milli Şurasının sədri Dominik de Buman İrəvanda Azərbaycanın suverenliyini təhdid edən mövqe sərgiləyib. Ermənipərəst spiker iddia edib ki, Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququ var. Hələ illər öncə Azərbaycan ərazilərinə qanunsuz səfər etməklə "qara siyahı"ya düşən Buman çox güman ki, bununla ermənilərə yarınaraq, Bakıdan qisas aldığını zənn edib. Artıq rəsmi Bakı bununla əlaqədar mövqeyini açıqlayıb.

**Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Bumanın səsləndirdiyi fikirləri şərh edib. O bildirib ki, Dominik De Buman İsveçrə Milli Şurasının spikeri kimi rəsmi statusundan sui-istifadə edərək Ermənistana səfər əsnasında İsveçrənin neytrallıq siyasətinə zidd olaraq qərəzli açıqlamalarla çıxış edir. Və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlara xələl yetirir.** "İsveçrə Milli Şurasının sədri Dominik De Bumanın İrəvanda səsləndirdiyi fikirlər beynəlxalq səviyyədə qəbul olunmuş dilə tərcümə edildikdə seqreqasiya və rasizmin dəstəklənməsi kimi qiymətləndirilə bilər. Dominik De Buman 2012-ci ildə Azərbaycanın qanunlarını, ərazi bütövlüyü və suverenliyini pozaraq Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfər edib. Bu səfərlə və indi İrəvandan səsləndirdiyi fikirlərlə o, Ermənistanın Azərbaycana qarşı təcavüzü, ölkəmizin ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və işğal olunmuş ərazilərimizdə bir milyondan artıq azərbaycanlıya qarşı törədilmiş qanlı təmizləməyə bəraət qazandırdığını nümayiş etdirir" - deyə XİN rəsmisi bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Rusiyada yeni diaspor təşkilatımızla bağlı xoş xəbər

## Mart ayında qurultay keçiriləcəyi gözlənilir



Fazil Qurbanov

**Rusiyada Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) ləğv edilməsindən sonra Rusiyadakı azərbaycanlılar yeni təşkilatın yaradılması istiqamətində səy göstərirlər. Qeyd edək ki, ötən ilin mayında Rusiya Ali Məhkəməsi Rusiya Ədliyyə Nazirliyinin "Ümumrusiya Azərbaycan Konqresi" (ÜAK) ictimai təşkilatının nizamnaməsinin Rusiya qanunvericiliyinə uyğun olmaması səbəbindən ləğv edilməsi barədə iddiasını təmin edib. Sentyabrın 19-da isə Rusiya Ali Məhkəməsinin Apelyasiya Şurası ÜAK-ın ləğvi ilə bağlı qərarı qüvvədə saxlayıb. Bundan sonra Rusiya Ali Məhkəmənin Rəyasət Heyəti də ilkin instansiyanın qərarını qüvvədə saxlayıb. Odur ki, ÜAK rəhbərliyində olan şəxslər vaxt itirmədən yeni diaspor təşkilatının yaradılmasını zəruri sayaraq, hərəkətə keçiblər. Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) prezidenti Fazil Qurbanov bir müddət öncə qəzetimizə bildirmişdi ki, hüquqşünaslar lazımi sənədləri hazırlayıb qeydiyyat üçün Ədliyyə Nazirliyinə təqdim edəcəklər. Qurumun təsisçiləri çalışırlar ki, bu təşkilat ÜAK-ın taleyini yaşamasın. Odur ki, hüquqi prosedurlara ciddi şəkildə əməl edilir. Aldığımız son məlumata görə, Rusiya hakimiyyət dairələri azərbaycanlıların diaspor təşkilatının təsis edilməsi barədə təşəbbüsə müsbət yanaşır. Bu mənada ümid var ki, yeni təşkilatın qeydiyyatına əngəl yaradılmayacaq. Qeyd edək ki, F.Qurbanov əməkdaşımızla söhbətində məsələni siyasiləşdirməyin əleyhinə olduğunu deyərək, problemlərin ortaya çıxmasının hüquqi səbəblərinin olduğunu bildirmişdi. Onun sözlərinə görə, keçmiş rəhbərlik hüquqi boşluqların aradan qaldırılması barədə xəbərdarlıqlara vaxtında reaksiya vermədiyi üçün iş bu həddə gəlib çatıb. Diaspor təşkilatının rəhbəri regionlardakı soydaşlarımızın da yeni təşkilatın ətrafında birləşməyə hazır olduğunu da söyləmişdi. "Biz istərdik ki, tanınmış ziyalılar, biznesmenlər bizə dəstək olsun. Əlbəttə, onlar böyük dəstək verə bilər. Biz heç kimin yolunu bağlamamışıq, bizim cəmiyyət açıqdır. Adlı-sanlı adamlar insanlara dəstək ola bilər". Bu fikirləri də F.Qurbanov ötən müsahibələrindən birində bizə demişdi. Məlumata görə, bir sıra adlı-sanlı ziyalılar, o cümlədən iş adamları yeni diaspor təşkilatının işinə yaxından dəstək verirlər. Onların bəzilərinin Putin administrasiyası ilə yaxın əlaqəsi var.**

Məlumatlı mənbənin dediyinə görə, yeni təşkilatın qurultayının mart ayında keçirilməsi gözlənilir. Ola bilsin ki, qurultay Rusiyadakı prezident seçkilərindən əvvəl baş tutsun. Mənbəmiz bildirdi ki, Bakı ilə Moskva arasında intensiv əlaqələr, münasibətlərin yüksələn xətlə inkişafı da diaspor təşkilatı ilə bağlı işlərin dinamikasına təsir göstərir. Yeri gəlmişkən, fevralın 6-7-də Azərbaycan parlamentinin nümayəndə heyəti spiker Oqtay Əsədovun başçılığı ilə Rusiyada səfərdə olub. Parlament nümayəndə heyəti Azərbaycanla Rusiya arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi münasibətilə tədbirdə iştirak edib. Nümayəndə heyətinin tərkibinə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və digər rəsmi şəxslər daxildirlər. Yəqin ki, bu səfər zamanı Azərbaycan parlamentində vaxtaşırı müzakirə olunan məsələdən, milyonlarla azərbaycanlını öz ətrafında birləşdirən ÜAK-ın ləğvindən sonra yeni təşkilatın təsis olunmasından da bəhs olunub. Bu arada məlum oldun ki, Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin aprel ayında, prezident seçkilərindən sonra Azərbaycana səfər edəcək. Bu əlaqələr isə azərbaycanlılaırn diaspor təşkilatının təsis olunmasına heç şübhəsiz ki, müsbət təsir göstərəcək.

❑ **Cavid TURAN,**
❑ **"Yeni Müsavat"**

# Yavər Camalovun zavodlarında 4 ildə 4 partlayış

## Qəsd, yoxsa səhlənkarlıq - həssas məqamda baş verən hadisə şübhələrə yol açır



**Müdafiə Sənayesi Nazirliyinin daha bir zavodunda - Bakının Xətai rayonunda yerləşən "Radioquraşdırma" İstehsalat Birliyində fevralın 6-da yanğınla müşahidə edilən partlayış baş verdi.**

Fövqəladə Hallar Nazirliyinin (FHN) "Radioqurașdırma" zavodunda partlayışla nəticələnən yanğınla bağlı yaydığı məlumatda bildirilib ki, hadisə ümumi sahəsi təqribən 250 kvadratmetr olan pirotexniki məhsulların saxlandığı anbarda baş verib. Dövlət Yanğından Mühafizə Xidmətinin ilk yanğın bölmələri hadisə yerinə saat 19:20-də çatıb. Yanğın saat 20:08 dəqiqədə söndürülüb. Hadisə nəticəsində xəsarət alanlar barədə məlumat daxil olmayıb. Partlayışın meydana gəlməsi səbəbi haqda məlumat verilmir.

Bu hadisə ötənlərdə baş verən oxşar olayları da diqqət mərkəzinə gətirib...



Şirvan, 2015

### Partlayış seriyası MSN-i niyə bürüyüb?

Partlayış baş verən zavoda müdafiə sənayesi naziri Yavər Camalov, fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev və Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov gediblər. Əraziyə ilkin baxış keçirilib. "Radiozavod" 1948-ci ildə Yerli Sənaye Nazirliyinin tabeliyində yaradılıb. Zavodun ilk məhsulu "Rekord" və "Qranit" lampalı radioqəbuledicilər olub. 2006-cı ildən zavod Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Qeyd etdiyimiz kimi, bu, MSN-in tabeliyində olan və partlayış baş verən ilk zavod deyil. 2015, 2016-cı illərdə Yavər Camalovun rəhbərlik etdiyi nazirliyin tabeliyindəki daha 2 zavodda yanğınla müşayiət olunan partlayışlar baş vermişdi.

2015-ci il iyul ayının 6-da Müdafiə Sənayesi Nazirliyinin Şirvanda yerləşən "Telemexanika" zavodunda partlayış baş vermişdi. Hərbi təyinatlı zavodda baş verən, 1 nəfərin ölümü, 19 nəfərin yaralanması ilə nəticələnən güclü partlayışdan sonra tezliklə olayın hansı səbəbdən meydana gəlməsinin açıqlanacağı gözlənilirdi. Şirvan Şəhər Prokurorluğunda başlanan cinayət işi partlayışdan sonra yaranan suallara cavab vermədi.

MSN-in Şirvandakı zavodundakı partlayışdan 1 ay sonra Müdafiə Sənayesi Nazirliyinin Xəzər rayonu ərazisindəki daha bir zavodunda partlayışla müşayiət olunan yanğın baş verib. MSN-in "İqlim" Elmi-İstehsalat Müəssisəsinə daxil olan zavodda avqustun 6-da baş verən yanğını söndürmək üçün əraziyə Fövqəladə Hallar Nazirliyinin 20-yə yaxın yanğınsöndürən maşını cəlb olunmuşdu.

Əraziyə müdafiə sənayesi naziri Yavər Camalov, onun müavinləri, fövqəladə hallar nazirinin müavinləri və yüksək çinli şöbə rəisləri də getmişdilər. Zavod hərbi təyinatlı və qapalı olduğundan hadisə yerinə mətbuat nümayəndələri buraxılmamışdı. Yanğın yarımzirzəmi, divarları iç tərəfdən rezin materialla əhatələnən böyük bir tikilidə baş verdiyindən yanğınsöndürənlər içəri daxil ola bilməyiblər. Rezin materialın yanması nəticəsində əmələ gələn qatı duman da alovu ram etmək istəyən yanğınsöndürənlərə ciddi çətinliklər yaradıb. Alov sutka yarımdan sonra söndürülüb. Hərbi təyinatlı zavodda yanğının hansı səbəbdən meydana gəlməsi ictimiyyətdən gizli saxlanıldı. Baş vermiş olay zamanı zavodun işçilərinin xəsarət alması və ya zəhərlənməsi haqda məlumat verilmədi.



Bakı, 2018

### Partlayışlar müdafiə sənayesi nazirini çətin duruma salsa da...

Bir-birinin ardınca, 1 ay fasilə ilə baş verən yanğınla müşayiət olunan partlayışlar müdafiə sənayesi nazirini çətin duruma salsa da, Y.Camalov nazirliyə tabe olan bütün müəssisə və təşkilatlarda yanğın təhlükəsizliyinə cavabdeh şəxsləri toplayaraq onlara xüsusi tapşırıqlar versə də, cəmi 1 il sakitlik oldu.

"Telemexanika" zavodunda 2015-ci ilin iyulunda baş verən olayın səbəbi gizli qaldığı bir vaxtda miqyasına və ölənlərin sayına görə daha dəhşətli partlayış xəbəri yenə də Şirvandan gəldi. "Telemexanika" zavodundakı partlayışın səsini yaxınlıqdakı yaşayış binalarının sakinləri eşitmişdilərsə, bu zavodun qonşuluğunda yerləşən "Araz" zavodunda 1 il sonra - 2016-cı il iyulun 26-dakı dəhşətli partlayışın səsi 10 kilometr aralıdan eşidilirdi. Partlayış zamanı göydə uçuşan mərmilərdən bəziləri hətta Şirvan şəhərinin mərkəzi prospektinə də gedib düşmüşdü. Bu partlayış ölkənin gündəmini dəyişən olaya çevrilmişdi. "Araz" zavodunda baş verən partlayışla da bağlı Şirvan Şəhər Prokurorluğunda cinayət işi başlandı, amma nəticə açıqlanmadı...

"Araz" zavodunun sexlərinin birində baş vermiş yanğın və partlayış nəticəsində 1959-cu il təvəllüdlü Raziyyə Süleymanova aldığı yanıq xəsarətlərindən hadisə yerində dünyasını dəyişmişdi, sexdə işləyən digər şəxslər müxtəlif dərəcəli bədən xəsarətləri almışdılar. Hadisə nəticəsində xəsarət alanlardan 12 nəfər ilk tibbi yardım göstərilməklə evlərinə yola salınmışdılar. 9 nəfər isə stasionar müayinə üçün şəhər mərkəzi xəstəxanasına yerləşdirilmişdi. Maraqlıdır ki, Müdafiə Sənayesi Nazirliyinin olayla bağlı məlumatında zavodun sexlərindən birində yaranmış qısaqapanma nəticəsində sıçrayış olduğu və nəticədə 20 kvadratmetr sahədə yanğın baş verdiyi qeyd olunurdu.

Ümumiyyətlə isə "Radiozavod"da baş verən partlayışın qəfil prezident seçkilərinin elan olunmasından sonrakı günə təsadüf etməsi şübhələrə də yol açır. Zavoddakı partlayışın qəsdən törədilməsi ilə bağlı iddialar səsləndirənlər də tapılır. Bir maraqlı nüans da odur ki, bu partlayışa qədər, xüsusilə son 15 gündə Bakıda hər gün yanğın və partlayış baş verir. 2018-ci il yanvarın 27-də Bakının mərkəzi küçələrindən birində dəhşətli partlayış meydana gəldi. Partlayışın qaz sızmasından baş verdiyi elan olundu. Sonrakı və əvvəlki günlərdə də oxşar hadisələr baş verib...

MSN-in 4 zavodunda son 4 ildə baş verən yanğınla müşayiət olunan partlayışların hansı səbəbdən meydana gəlməsi sirr olaraq saxlanılır, şəhərin mərkəzində partlayışın səbəbi də elə o formada... Diqqəti cəlb edən daha bir məqam: Dilarə Əliyeva küçəsində yerləşən və partlayış baş verən bina tariximizə qanla yazılan, 2009-cu il aprelin 30-da baş verən dəhşətli bir faciəyə şahidlik etmiş Azərbaycan Dövlət Neft Akademiyasının bir addımlığındadır. Həmin gün Fərda Qədirov əlinə silah alıb ADNA-ya daxil olub qarşısına keçən hər kəsə atəş açmışdı. Qanlı olay zamanı 12 nəfər dünyasını dəyişib, 13 nəfər isə yaralanmışdı. Bu olaydan əvvəl isə Bakıda, Xətai rayonu ərazisində bir neçə binanın, uşaq bağçasını qidalandıran transformator məntəqəsində qısaqapanma törədilmişdi. Hadisə yerinə gələn "Azərenerji"nin təmir briqadası transformator məntəqəsinə daxil olmaq istədikdə qapıya quraşdırılmış partlayıcı vasitə partlamışdı. Nəticədə "Azərenerji"nin 2 əməkdaşı hadisə yerində ölmüşdü, bir neçəsi isə yaralanmışdı. O dövrdə bu məsələyə dair geniş açıqlama da verilmədi. ADNA-dakı qanlı hadisə də terror kimi təsbit olunmasa da, bunun miqyasını kiçiltmək mümkün olmadı...

Bu kimi olaylar adətən siyasi həssas məqamlarda baş verdiyindən və prezident seçkisi elan edilləndən bir gün sonra bu partlayışın baş verməsi müvafiq qurumların və vətəndaşların son dərəcə ayıq-sayıq olmasını zəruri edir.

❑ **E.MƏMMƏDƏLİYEV**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (6919) 8 fevral 2018

**ABŞ-ın gizli diplomatik yazışmalarını bütün dünyaya faş edən "WikiLeaks"ın qurucusu Culian Assanc heç şübhəsiz ki, 21-ci əsrin ən qalmaqallı personalarından biri sayılır. Bəli, o, dünyanı bir günün içində, heç vaxt sakitləşməyəcək şəkildə lərzəyə gətirdi. Hələ də dünya ondan və ətrafında baş verən proseslərdən danışır.**

# Bir otaqda oturub, dünyanı silkələyən adam

## Başı qalmaqallardan açılmayan Culian Assancın son durumu



"Yeni Müsavat" xatırladır ki, "WikiLeaks" veb saytının yaradıcısı 2010-cu ildə iki qadına qarşı seksual zorakılıq əməlinə görə ittiham edilib. O, özü bu ittihamı rədd edir.

2014-cü ilin noyabrında isə C.Assancın qiyabi şəkildə apelyasiya məhkəməsi baş tutmuşdu. Assanc Amerika hökumətinə məxsus məxfi sənədləri ifşa etməkdə və İsveçdə cinsi zorakılıq törətməkdə ittiham olunur. Assancın vəkili onun həbsinə dair qərarın ləğv edilməsi üçün apelyasiya məhkəməsinə müraciət etmişdi.

İsveçdə keçirilən məhkəmə Assanc üçün uğursuz nəticə vermiş, hakimlər həbs qərarını ləğv etməmişdilər. Assanc 2012-ci ilin iyun ayından etibarən Böyük Britaniyanın paytaxtı Londonda Ekvadorun bu ölkədəki səfirliyində siyasi sığınacaq əldə edib. O, 2006-cı ildə Amerika hərbi qüvvələrinin İraqda keçirdiyi qanunsuz əməliyyatları ifşa etmiş, helikopterlə keçirilən əməliyyatlardan biri zamanı 18 mülki vətəndaşın güllələnərək öldürüldüyünü nümayiş etdirmişdi. Culian Assanc ona məxsus gizli teletaypları açıqladığı üçün Amerika Birləşmiş Ştatlarının qəzəbinə gəlib. Məlumatın mediaya sızması Amerika hökumətinin imicinə ağır zərbələrdən biri hesab edilir.

### Assancın gerçək hekayəsi - qaramatla dolu

Amma bura qədər yazdıqlarımız onun gerçək kimliyini üzə çıxarmır. Dünyanı lərzəyə gətirən adamın özü qədər ilginc bir hekayəsi var.

Assanc 1971-ci ildə Avstraliyada anadan olub. Uşaqlıqda riyazi istedadı ilə seçilirdi. Ancaq bu ona həm də çətinliklər yaradıb. 24 yaşında kompüter quldurluğuna görə məhkəməyə çıxarılıb, bir neçə min dollar cərimə ilə həbsxanadan qurtula bilib.

Sonra 3 il Suelette Dreyfusla internet araşdırmaları aparıb, onların bestsellerə çevrilən birgə kitabı da çıxıb. Dreyfus deyir ki, Assancı həmişə mənəviyyat, ədalət və hökumət nə edə bilər, nə edə bilməz sualları maraqlandırırdı. Assanc daha sonra Melburn Universitetində riyaziyyatdan və fizikadan kurslar aparıb. Yerli riyazi cəmiyyətin sevimlisi olub.

Avstraliyada doğulan Assancı anası tək böyüdüb. Hələ 14 yaşı olmadan anası ilə 37 dəfə fərqli yerlərə köçüb və 11 yaşında ikən evdən qaçıb. Onun hərəkətlərindən narahat olanlar iddia edirlər ki, Assanc gənc yaşlarında hakerlik etməyə başlayıb, təşkilatlara zərər verib.

Bir başqa məlumata görə isə onun anası ilə atası Vytenam müharibəsi əleyhinə nümayişdə tanış olublar. Müxalif tərəfdarı olması da ona valideynlərindən qalan "miras"dır.

### Assanc nələr edib, hansı qaranlıq işlərdə imzası olub?

Assanc və dostları bir çox saytları sıradan çıxarıblar. Bu saytlar içərisində Amerika Müdafiə Nazirliyinin saytının da olduğu bildirilir. Assancın fəaliyyəti bir müddət vətəni Avstraliyada izlənilib. Hakim qarşısına çıxarılsa da, simvolik təminatla xilas ola bilib. Bu hadisədən sonra hakerlikdən əl çəkən Assanc özünə jurnalistika sahəsində karyera qurmaq qərarına gəlib. 2006-cı ildə "WikiLeaks"adlı saytı yaradan Assanc gizli məlumat və sənədləri dərc edir. Keniyaya dair yaydığı məlumatlara görə, 2009-cu ildə Beynəlxalq Əfv Təşkilatından mükafat alan avstraliyalı jurnalist keçən ilin aprel ayında iraqlı vətəndaşların və "Reuters" agentliyinin fotoqrafının ABŞ əsgərləri tərəfindən öldürülməsinə dair görüntülərlə İraqda gərginlik yaradıb. 5 redaktoru və 800 könüllüsü olan "Wikileaks"in rəhbəri Assanc bütün bunları gizli şəkildə dərc etdirmək məcburiyyətindədir. O öz fəaliyyətini davam etdirmək üçün Şərqi Afrikada Keniya və Tanzaniyaya, bəzən isə İslandiyaya gedib.

O, Türkiyənin "Hürriyet" qəzetinə verdiyi məlumatda "Wikileaks" həqiqətlərindən danışıb.

Assancın "Hürriyet" qəzetinə verdiyi müsahibədə söyləyib ki, **"Dərc etdiyim hər xəbər həqiqətə söykənir. Qəzetlərin etməli olduğunu "Wikileaks" edir. Buna görə də dünyanın dörd bir yanından inanılmayacaq dəstəklər gəlir. Çox gözəl insanlar mənə dəstək verir. Buna görə də ürəyim rahatdır".**

### Dünyada həqiqi islahat etmək istəyənlərdən biri...

Assanc "WikiLeaks"i çalışdırmağa 2006-cı ildə başlayıb. O, müxtəlif ölkələrin məxfi hökumət sənədlərini çap edirdi. Həmtəsisçi Daniel Şmidt deyir: "Assanc dünyada həqiqi islahat etmək istəyən çox az adamdan biridir".

"New Yorker" jurnalının reportyoru Raffi Xatçaduryan bir neçə həftə Assancı müşayiət edib. O deyir ki, Assanc yemədən, çox az yatmaqla uzun müddət işləyə bilir. Assancın öz ətrafında yaratdığı bu işgüzar atmosfer hamını ona kömək etməyə sövq edir. Reportyorun fikrincə, Assancın iki üstünlüyü var- xarizma və ətrafında yaratdığı bu mühit.

Assanc 2011-ci ildə 240 min funt sterlinq zəmanət qarşılığında Londonda ev dustağı həyatı yaşayıb. Onun pasportu əlindən alınıb, yaşadığı evdən belə çıxmasına qadağa qoyulub. O, hər gün London polisinə hesabat verməli və elektron qolbaq taxmalıdır.

"Wikileaks" saytında yüz minlərlə qalmaqallı sənəd dərc edildikdən sonra məşhurlaşan Culian Assanc 2007-ci il dekabrın 7-də Londonda İsveç tərəfindən verilmiş order əsasında həbs edilib. Dekabrın 16-da London məhkəməsi onu girov müqabilində azadlığa buraxıb. O vaxtdan qalmaqallı saytın yaradıcısı Londonun şərqində biznesmen dostu Von Smitin evində faktiki ev dustaqlığında yaşayıb. Stokholm prokurorluğu onun İsveçdə seksual xarakterli cinayətlərlə bağlı dindirilməsi üçün bu ölkəyə verilməsini tələb edir. Culian Assanc isə 2012-ci ildə Ekvadorun Londondakı səfirliyinə gedərək, Latın Amerikası ölkəsindən siyasi sığınacaq istəyib.

**""WikiLeaks" sənədlərin dərc olunmasını davam etdirəcək. Bu gün mənim üçün mühüm qələbədir. Lakin yol indi başlayır, əsl müharibə hələ qabaqdadır".** C.Assanc İsveç prokurorluğunun ona qarşı cinayət işinə xitam verməsindən sonra ilk dəfə jurnalistlər qarşısına çıxarkən, 2017-ci ilin mayında bu fikirləri səsləndirmişdi.

Həmin vaxt İsveç prokurorluğu Culian Assancın işi üzrə yeddi ilə yaxın davam edən istintaqın dayandırılması barədə qərar çıxarmış və məhkəməyə onun həbsi üçün verilmiş orderin ləğv olunmasını tövsiyə etmişdi. Lakin Britaniya polisi bildirmişdi ki, Assanc Ekvadorun Londondakı səfirliyini tərk edərsə, həbs olunacaq. Skotlend-Yard bunu Vestminsterin magistrat məhkəməsinin 2012-ci il iyunun 29-da məhkəməyə gəlmədiyinə görə Culian Assancın həbsinə order verməsi ilə əsaslandırıb.

2010-cu ildə Stokholmda seksual xarakterli cinayət törətməkdə ittiham olunan Assanc həmin ilin dekabrında İsveç hüquq-mühafizə orqanlarının sorğusuna əsasən Londonda həbs edilmiş, lakin bir neçə gündən sonra girov müqabilində azadlığa buraxılmışdı. İsveçin onu ABŞ-a verəcəyindən ehtiyatlanan Culian Assanc 2012-ci ildə siyasi sığınacaq xahişi ilə Ekvadorun hakimiyyət orqanlarına müraciət etmişdi və beş ildən artıq bu ölkənin Londondakı səfirliyində qalıb.

Bu il yanvarın əvvəlində isə bəlli olub ki, Ekvador "WikiLeaks"in təsisçisi Culian Assancı ölkəsinin Londondakı səfirliyindən qovmaq niyyətindədir. "Yeni Müsavat" ntv.ru-ya istinadən xəbər verir ki, Assanc Ekvador prezidenti Lenin Morenonu onun müttəfiqləri barədə yazdığı tvitlərlə qəzəbləndirib. Daha öncə isə məlum olmuşdu ki, Assanc Ekvator prezidentindən onu haker adlandırdığı üçün inciyib. Wikileaks portalının baş redaktoru bu cür xarakteristika ilə razılaşmayıb və özünün jurnalist olduğunu xüsusi vurğulayıb. Hazırda ölkə Assancın səfirliyin binasından çıxarılması ilə bağlı Böyük Britaniya ilə danışıqlar aparmaq üçün vasitəçi axtarır.

❑ **Sevìnc TELMANQIZI**
**"Yenì Müsavat"**

# Dünya tarixində inqilab kimi hadisə

## Raket Marsa göndərildi və qayıtdı

**Fevral ayının 7-nə keçən gecə SpaceX şirkəti son on illərin ən böyük raketini buraxıb. Bu, özəl bir şirkət üçün də böyük uğur sayılır. "Falcon Heavy" raketi fevralın 6-da Floridanın məşhur Kennedy Kosmik Mərkəzindən buraxılıb. 50 il öncə NASA da Aya astronavtları buradan göndərmişdi.**





Buraxılandan səkkiz dəqiqə sonra raketin iki yan hissəsi Yerə qayıdıb, yaxınlıqdakı Cape Canaveral Hava Qüvvələri Stansiyasına eniş edib. Raketin orta hissəsi sahildə 400 kilometr aralıda Atlantik Okeanında platformaya düşməliydi. Amma son məlumatlarda bunun baş tutmadığı bildirilir.

"Falcon Heavy" 1970-ci illərdə NASA-nın işlətdiyi Saturn V raketlərindən bəri orbitə buraxılmış ən böyük raket sayılır. Tam işlək vəziyyətə gətiriləndən sonra bu sistemdən ABŞ ordusu və telekommunikasiya şirkətlərinin işlətdiyi ağır peyklərin orbitə çıxarılmasında istifadə olunacaq.

SpaceX şirkətini Kaliforniyadan sahibkar Elon Musk yaradıb. Onun "Tesla" şirkətinin buraxdığı elektrik avtomobilləri isə Birləşmiş Ştatlarda məşhurlaşıb.

"Falcon Heavy" orbitə "Tesla Roadster" avtomobilini də çıxarıb. Şirkəti bu maşını Marsa göndərməyi planlaşdırır.

Partladıldıqdan üç dəqiqə sonra sürətartırıcı raketlərindən ayrılan "Falcon Heavy" və ikinci etap dünya oxu ətrafına irəlilədikcə ən riskli bölümün sona çatdığı bildirilir. 2 raket vəzifəsini tamamladıqdan sonra problemsiz olaraq geri dönüb. "Falcon Heavy" isə qarşıdakı saatlar boyunca dünyanın Van Allen radiasiya zolağını gəzəcək.

Mütəxəssislər ilk dəfə bir hökumət yerinə özəl şirkət tərəfindən illərcə kosmosa yük daşıyan "Falcon 9" raketinin turbo şarjlı versiyasının bazara çıxarılması ilə kosmos uçuşunda önəmli, hətta inqilabi bir addım atıldığına diqqət çəkirlər. Bu arada "Falcon Heavy"inin ilk dəfə bir avtomobil daşıması kosmos səfərinə olan diqqəti artırıb. Elon Muskun digər firması "Tesla" tərəfindən istehsal edilən elektrikli bir idman maşını olan "Roadster"in sürücü kreslosunda SpaceX-in köynəklərindən birini geyinmiş bir maneken oturub. "Roadster" kosmosa gedən ilk avtomobil ünvanını alıb.

"Falcon Heavy"in ilk uçuşu ilə daha böyük raketlər yaratmaq üçün SpaceX-ə güc verdiyini iddia edən mütəxəssislər Muskun Marsa insanları göndərmə xəyalını gerçəkləşdirməsinə kömək edə biləcəyini iddia edirlər.

Ekspertlər bildirirlər ki, ilk dəfə hökumət əvəzinə özəl şirkət kosmosa raket göndərir. Mask test uçuşunun riskli olduğunu və müvəffəqiyyət ehtimalının 50% olduğunu söyləyib.

❑ **Sevìnc TELMANQIZI,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 30 (6919) 8 dekabr 2017



## Evlənmək istəyən 1349 nəfərdə sifilis, 293 nəfərdə isə QİÇS aşkarlandı

**Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda qan xəstəliklərinə görə dispanser qeydiyyatına götürülən xəstələrin sayı 27 523 nəfərə çatıb.**

Virtualaz.org saytı xəbər verir ki, bunu institutun direktoru Zöhrə Əlimirzəyeva ötən ilin yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.

Z.Əlimirzəyeva qeyd edib ki, ötən il ilkin olaraq 687 nəfərdə qanın bədxassəli xəstəlikləri aşkarlanıb. Xəstəlik aşkarlananların 603 nəfəri böyüklər, 84 nəfəri isə uşaqlardır. "Hazırda dispanser qeydiyyatında olan hemoblastozlu xəstələrin sayı 2233 nəfər, qanın bədxassəli xəstəliyi diaqnozu müəyyənləşdirilmiş uşaqların sayı 313 nəfərdir", - direktor əlavə edib.

Tədbirdə qan donorları ilə bağlı məlumat verilib. Z. Əlimirzəyevanın sözlərinə görə, ötən il Mərkəzi Qan Bankı üzrə donor sayı 44 957 nəfər, respublika üzrə donor sayı 85 253 nəfər olub. İl ərzində 40670,5 litr qan tədarük edilib.

Nikahqabağı müayinədən isə 135990 nəfər keçirilib. Onlardan 3891 nəfərdə talassemiya daşıyıcılığı, 449 nəfərdə sifilis, 119 nəfərdə QİÇS aşkar edilib. Hər ikisində talassemiya daşıyıcılığı olan cütlüklərin sayı 41 olub. Bu cütlüklərin 39-u instituta müraciət edib, 22 nəfər hamiləlik zamanı prenatal diaqnostika olunub.

İnstitut direktoru onu da söyləyib ki, nikahdanöncə müayinələrin tətbiq edildiyi gündən indiyədək 373680 nəfər müayinəyə cəlb edilib. Onların 14364-ündə talassemiya daşıyıcılığı, 1349-unda sifilis, 293-ündə QİÇS aşkarlanıb. 134 cütlüyün hər ikisində talassemiya daşıyıcılığı müəyyən edilib. Bu cütlüklərin 86-sı instituta müraciət edib, 44 nəfər hamiləlik zamanı prenatal diaqnostika olunub. Onlarda 11 xəstə, 26 daşıyıcı və 7 sağlam döl müəyyənləşdirilib.

Z.Əlimirzəyeva qan xəstəlikləri üzrə tətbiq edilən dövlət proqramları haqqında da məlumat verib. Onun sözlərinə görə, dövlət tərəfindən pulsuz dərmanlar verilir. Talassemiya ilə mübarizəyə dair dövlət proqramlarının həyata keçirilməsi, həmçinin profilaktik tədbirlərdən sonra talassemiyalı uşaqların doğulması, bu xəstəlikdən əlillik və ölüm halları azalıb.

# İŞİD İraq və Suriyada yenidən fəallaşır

## Terror təşkilatını kim və necə "diriltdir"?





**İraq və Suriyada savaşın yenidən alovlanması və bölgədə hərbi iştirakı olan dövlətlər arasında fikir gərginliyinin yaranması İŞİD-ə sərf edib. Belə ki, ötən ilin sonlarında hər iki ölkədə əzilən terror təşkilatı yenidən dirçəlməyə, təşkilatlanmağa çalışır.**

Qeyd edək ki, ötən ilin sonunda İraq hökuməti İŞİD-in tamamilə məğlubiyyətə uğradıldığını rəsmən bəyan etdi. Ancaq buna baxmayaraq, ölkənin şimal-qərbində hələ də İŞİD-in nəzarət etdiyi böyük bir ərazi var. Bundan başqa, səhralıq bölgədə hərbi qüvvələrin terrorçu "ovu" davam edir.

Suriyada isə vəziyyət daha dramatikdir. Ölkənin şərqində Deyr əz-Zor vilayəti Suriya ordusu və SDQ (kürdlər və digər etnik qruplardan ibarət koalisiya - K.R.) qüvvələri tərəfindən təmizlənsə də, əl-Qaim və eləcə də şimala doğru İraq-Suriya sərhədində, o cümlədən Deyr əz-Zordan qərbə doğru ölkənin içərisində çöllük bölgədə hələ də İŞİD-in nəzarət etdiyi böyük bir ərazi var. Bundan başqa, Dəməşq ətrafında Yərmuk qaçqın düşərgəsində və cənubda İsrail sərhədinə doğru ərazilərdə İŞİD-in nəzarət etdiyi bölgələr var. Ən diqqət çəkən ərazi isə ölkənin mərkəzində Hama və İdlib vilayətləri arasındadır. Bu bölgədə bir zaman İŞİD demək olar ki, məhv edilsə də, sonradan bölgədə Suriya ordusu və islamçılar arasında başlayan toqquşmalar və kürdlərin bölgədə aktivləşməsi ilə birlikdə qəflətən İŞİD əraziləri sürətlə böyüməyə başladı. Hazırda Suriya ordusu məhz Hama-Hələb xətti üzərində, İdlib və Hama vilayətləri arasında yerləşən İŞİD "adası-na" qarşı hərbi əməliyyatları davam etdirir. Hama və İdlib vilayətləri arasındakı ərazidə İŞİD-in 400 kv.km əraziyə nəzarət etdiyi bildirilir. Toqquşmalar isə davam edir, son olaraq hökumət qüvvələri 19 kəndi İŞİD-dən geri alıb.

Suriyada indi tərəflər bir-birini ittiham edir. Müxaliflər İŞİD-in yenidən fəallaşmasında hökuməti ittiham edir, rəsmi Dəməşqin İŞİD-in irəliləməsinə şərait yaratdığını iddia edir. Hətta Rusiya hərbi aviasiyasının zərbələrində İŞİD-in böyüməsində rol oynayır.

ABŞ-ın yaratdığı İŞİD əleyhinə koalisiyanın sözcüsü, polkovnik Rayan Dillon deyib ki, İŞİD terrorçularının Bəşər Əsəd hökumətinin nəzarət etdiyi bölgələrdən keçib getmələri haqda əllərində dəlillər var. Bundan başqa, ötən ilin sonunda BBC Raqqada mühasirədə qalan 300-dən artıq İŞİD-çinin ailələri ilə birlikdə azad buraxıldığı xatırlanır. Eyni zamanda hazırda davam edən Afrin əməliyyatı səbəbi ilə yaranmış qarışıq vəziyyətin İŞİD-ə sərf etdiyi və qruplaşmanın bundan istifadə edərək mövqelərini möhkəmləndirməyə çalışdığı bildirilir. Bu iddianı isə kürdlər irəli sürür.

İraqda da İŞİD-in sürətlə fəallaşdığı müşahidə olunur. Britaniyanın "Times" nəşrinin yerli analiz qruplarına istinadən yazdığına görə, İraqda son 3 ay yarımda İŞİD terrorçuları 440 terror aktı, silahlı hücum, sui-qəsd və adam qaçırma hadisəsi törədib. Xüsusən də Diyala, Mosul və Anbar əyalətində İŞİD silahlıları xeyli dərəcədə fəallaşıb. Yeri gəlmişkən, İŞİD lideri Əbubəkr Əl-Bağdadinin də məhz Anbar əyalətində gizləndiyi ehtimal olunur.

Artıq İŞİD-çilərin İraqda bəzi nöqtələri yenidən geri aldığı qeyd olunur. Məsələn, yanvarın 29-da İŞİD silahlıları Hammam əl-Adil qəsəbəsini ələ keçirib və İraq bayrağını endirərək İŞİD bayrağı qaldırıblar. Halbuki adıçəkilən qəsəbə 2016-cı ildə İŞİD-dən geri alınmışdı. Yanvarın əvvəlində isə İŞİD silahlıları Mosulun qərbində maşın konvoyu ilə keçid təşkil ediblər. O da bildirilir ki, oktyabrdan bu yana İŞİD terrorçuları 390 iraqlı mülki insanı və 142 nəfər təhlükəsizlik qüvvəsi əməkdaşını qətlə yetirib. Hətta paytaxt Bağdadda hökumət məmurları, xüsusən də polis və silahlı qüvvələrin mənsubları gecələr sui-qəsdlərə məruz qalaraq öldürülür. Hökumət rəsmi elan etməsə də mediada bu sui-qəsdlərin İŞİD-in əməli olması barədə iddialar yer alıb.

Qeyd edək ki, ötən ilin oktyabrında mərkəzi hökumətlə Ərbil arasında gərginlik yarandığı zaman Bərzani administrasiyasının əsir alınmış İŞİD üzvlərini azad etməsi ilə bağlı iddialar mediada yer almışdı. Bu iddialar rəsmən təkzib olunmadı və sonrakı aylarda İŞİD-in sürətlə fəallaşmasında bu amilin də rolunun olması ciddi ehtimaldır. Digər tərəfdən, amerikalılar da artıq İraqdan çəkilir və bunun fonunda İŞİD-in fəallaşması bir mənada yaranmış təhlükəsizlik boşluğu ilə əlaqədardır. Digər tərəfdən, İraq mərkəzi hökuməti ilə Vaşinqton arasında soyuqluğun olması, o cümlədən Bağdada dəstək verən İran faktoru amerikalıların İraq cəbhəsini boş buraxması və İŞİD-in bundan yararlanmasına səbəb ola bilər. Çünki indi amerikalılar əsas diqqəti Suriyada kürdlərə verir və bununla da bir növ Bağdadı cəzalandırmış kimi görünürlər.

Görünən odur ki, İraq və Suriyada İŞİD-in tamamilə məhv edilmək ərəfəsində olduğu halda yenidən dirilməsinin bir neçə səbəbi olsa da, əsas səbəb məhz bölgədəki güclər arasındakı rəqabətin şiddətlənməsidir. Əslində İŞİD özü məhz bu rəqabət nəticəsində ortaya çıxıb və bu qədər böyüyə bilib. Suriya və İraqda yaranmış qarışıqlıq, müxtəlif ölkələrin fərqli maraqlardan çıxış etməsi və bu maraqların toqquşması terror təşkilatının meydana çıxmasına və bu qədər böyüməsinə gətirdi. Müxtəlif vaxtlarda ortaya atılan iddiaları ciddi qəbul eləsək, dünyanın bir neçə nüfuzlu dövlətləri məhz İŞİD-in yaranması və güclənməsində bilavasitə və ya dolayısı ilə iştirak edib, dəstək verib.

İndi isə bu vəziyyət yenidən davam edir. İraq və Suriyada dövlətlər arasında kəskin rəqabət yaranıb. Türkiyə Afrində Amerikanın müttəfiqi olan kürdlərə qarşı əməliyyat keçirir, Rusiya bu əməliyyata razılıq versə də, Suriya hakimiyyəti Türkiyənin şimal ərazilərində möhkəmlənməsindən narazı olduğu üçün əleyhinə çıxır. Sahədə isə Suriya və Rusiya ordusu Türkiyənin İdlibdəki tərəfdarlarına qarşı əməliyyat keçirir. İraqda isə Bağdad və Tehran İŞİD-ə qarşı qələbəni elan edib, Amerikanın dəstəklədiyi kürdləri cəzalandırdı. Bunun fonunda isə İŞİD yenidən fəallaşmağa başladı. Bu cür qarışıq vəziyyətlər hər zaman terror təşkilatları üçün münbit şərait yaradır. İndi bu fürsətdən İŞİD yararlanmağa çalışır və müəyyən mənada yararlanır.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

**Başsağlığı**

**Təhsil Nazirliyi "Sənətkar" jurnalının kollektivi baş redaktor Şahbaz Balakişiyevə atasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 30 (6919) 8 fevral 2018



# Bakı üçüncü dəfə Formula-1 yarışlarına hazırlaşır

**Bakı növbəti Formula -1 yarışlarına ev sahibliyi etməyə hazırlaşır. Aprelin 27-29-da keçirilməsi planlaşdırılan Formula-1 Azərbaycan Qran-Prisi artıq ard-arda olmaqla Bakıda üçüncü dəfə keçiriləcək.**

"Yeni Müsavat"a bildirilib ki, Bakı Şəhər Halqası yarışa tam gücü ilə hazırlaşır. Hər il olduğu kimi bu il də Bakı şəhərində keçiriləcək yarışı izləmək və işıqlandırmaq üçün həm yerli, həm xarici media nümayəndələri qeydiyyatdan keçiblər. Jurnalistlərin qeydiyyat prosesi isə fevralın 5-də yekunlaşıb. Məlumatlara görə, bu il Formula-1 yarışlarının təşkilində bəzi dəyişikliklər də olacaq. Verilən rəsmi məlumatlarda qeyd olunub ki, yarış bu il aprel ayında keçiriləcəyi üçün əyləncə proqramında dəyişiklik olunub. Belə ki, aprel ayı olduğundan havanın temperaturu nəzərə alınaraq konsert proqramları qapalı ərazidə keçiriləcək.

Bundan başqa, Formula-1 rəhbərliyi yeni mövsümdən yarışlardan əvvəl startda keçirilən tədbirlərin də formatını dəyişib. Bundan sonra yarışda starta qızlar deyil, uşaqlar çıxacaq. Uşaqlar avto-idman klublarının iştirakçıları arasından seçiləcək, dəvətnamələr lotereya şəklində oynanılacaq və ən yaxşı nəticə göstərən gənc sürücülərə paylanacaq. Dəvətnamə sahibləri yarışdan əvvəl start zolağına çıxa biləcək.

"Gənc sürücülər üçün möhtəşəm bir an olacaq: təsəvvür edin ki, onlar öz kumirlərinin yanında dura biləcək, yarışa hazırlıq prosesi ilə tanış olacaq, startdan əvvəl olan dəyərli dəqiqələrdə avtopilotların yanında olacaq", - deyə FİA rəsmi saytında Formula-1 kommersiya direktoru Şon Bratçesdən sitat gətirilib. Hesab olunur ki, qızların starta dəvət olunması təcrübəsi müasir sosial normalara ziddir.

## "Gənc sürücülər üçün möhtəşəm bir an olacaq - onlar öz kumirlərinin yanında dura biləcək"



Ekspertlər hesab edirlər ki, bu il Azərbaycanın yarışmadan götürəcəyi maddi xeyir daha çox olacaq. Bildirilir ki, əvvəla, artıq bu yarışların həvəskarları ötən ildən Bakı ilə tanışdırlar və yarışmanı izləmək üçün gələn turistlər öz ölkələrində ətraflarına müəyyən məlumatlar veriblər. Bunun nəticəsində bu il yarışları izləmək üçün daha çox turistin gəlməsi gözlənilir. Bundan əlavə isə Bakı küçələrində də artıq yarışma üçün nəzərdə tutulan yollar çəkilib, avadanlıqlar da ötən illərdən etibarən alınıb, hazır saxlanılıb.

"Yeni Müsavat"ın əməkdaşı Formula-1 yarışının keçirildiyi Bakı küçələrində olub, hazırlıq prosesi ilə də tanış olub. Müşahidə etdik ki, yarışmanın keçirildiyi küçələrin bəzilərində beton sədlər quraşdırılıb. Məsələn, artıq "İstiqlaliyyət" küçəsinin bir hissəsində, Qoşa Qala qapılarının önündə, "Neftçilər" prospektində beton sədlər 10 günə yaxındır ki, quraşdılıb. Lakin bu küçələrdə beton sədlərin üzərinə vurulan dəmir qoruyucular, hələ ki bərkidilməyib. Metronun "Sahil" stansiyasının çıxışı istiqamətində isə artıq dəmir sədlər də qurulub və Formula-1 yarışları üçün tam hazırlıq həyata keçirilib.

Onu da qeyd edək ki, tədbir həftənin son 3 gününə salınıb.

Yarışlara 2 aydan bir qədər artıq vaxt qalıb və hazırlıq işləri davam etdirilir. Onu da qeyd edək ki, Azərbaycan müqaviləyə uyğun olaraq bu yarışmadan 5 il imtina edə bilməz. Artıq bu 5 ilin 2 ili geridə qalıb. Əgər imtina olunarsa, bunun müqabilində 100 milyona yaxın cərimə ödənilməlidir.

❑ **Əli RAİS**

**Fotolar müəllifindir**

# Ölkədə meyvə-tərəvəz istehsalı artır, qiymətlər isə enmir - səbəb

## İqtisadçı ekspertlər situasiyanı şərh etdilər; "Kiçik ölkələrdəki qiymətləri həm də böyük ölkələrin bazarı tənzimləyir..."



**Ötən il Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalında artım qeydə alınıb. O sırada meyvə-tərəvəz, bostan məhsullarının istehsalında artımın daha çox olması ilə diqqəti çəkir. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin 11 ayında 889.4 min ton kartof, 1370.5 min ton tərəvəz, 437.5 min ton bostan bitkiləri istehsal olunub.**

Qeyd olunan dövrdə tərəvəz istehsalı 10.9 faiz, meyvə və giləmeyvə istehsalı 5.4 faiz, üzüm istehsalı 8.4 faiz artıb. İstehsalın artması ilə bərabər, kənd təsərrüfatı məhsullarının ixracında da yüksəliş qeydə alınıb. Ötən ilin yanvar-noyabrında 57.6 min ton kartof, 214.9 min ton tərəvəz-bostan, 220.3 min ton müxtəlif meyvə məhsulları ixrac edilib. Bundan ölkəyə 453 milyon ABŞ dolları məbləğində vəsait daxil olub. Bunun 151 milyon dolları pomidor ixracından qeydə alınıb. Bu il isə meyvə-tərəvəz istehsalının daha da artması gözlənilir.

Maraqlıdır ki, istehsalın artmasına rəğmən, ölkədə kənd təsərrüfatı məhsullarının, xüsusilə də meyvə-tərəvəz və bostan məhsullarının qiymətində azalma müşahidə olunmur. Hətta ötən yay mövsümündə belə meyvə-tərəvəzin satış qiyməti əvvəlki illə müqayisədə xeyli baha oldu. Hazırda da ölkədə meyvə-tərəvəz bahalığı ilə diqqət çəkir. İstixana təsərrüfatlarının sayı artsa da, bazarlarda xiyar-pomidorun satış qiyməti 2 manatdan aşağı düşmür.

Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbəri Bəşir Quliyevin "Yeni Müsavat"a verdiyi məlumatdan aydın olur ki, tərəvəzin ölkə daxilindəki qiyməti xarici ölkələrə, xüsusilə Rusiyaya satış qiyməti ilə uzlaşdırılır.

**Kənd təsərrüfatı üzrə ekspert Müslüm İbrahimov isə bildirir ki, iqtisadi nəzəriyyədə böyük və kiçik ölkələr anlayışı var:** "Bu, sübut olunmuş məsələdir ki, kiçik ölkələrdə qiymətlər həmişə böyük ölkələrin bazarları ilə uyğunlaşdırılır. Çünki böyük ölkələrin bazarlarının təchizatçısı kiçik ölkələr olur. Bu şəraitdə kiçik ölkələrin istehsalçılarının iki seçimi olur: ya öz məhsulunu böyük ölkənin bazarına çıxarıb satsın, ya da öz ölkəsində. Bu zaman xaricə satdığı qiymətdən yaxşı gəlir əldə edirsə, çalışacaq maksimum çox məhsul ixrac etsin. Daxildə satacaqsa, daha çox gəlir əldə etmək üçün yüksək qiymətə satmağa çalışacaq. İndi biz meyvə-tərəvəzi daha çox Rusiyaya satırıq və məcburuq qiymətləri oradakına uyğunlaşdıraq. Əgər məhsulumuzu daha çox Gürcüstana ixrac etsəydik, qiymətləri oradakı qiymətlərə uyğunlaşdırmayacaqdıq".

**Mütəxəssisin dediyinə görə, ölkə daxilindəki alıcılıq qabiliyyəti də qiymətlərə təsir göstərən əsas amillərdən biridir:** "Əslində bizdə meyvə-tərəvəzin qiymətinin aşağı olması üçün əsas var: dövlət istehsalçılara irihəcmli subsidiyalar ayırır. Yəni istehsalçıların xərclərinin bir hissəsi dövlət tərəfindən qarşılanır. Lakin məsələ burasındadır ki, istehsalçı görür ki, yüksək qiymətlə də məhsulunun alıcısı var, ona görə də alıcı cəlb etmək üçün hər hansı endirimə getmir. Qiymətləri yüksəldən daha bir amil ixracatın çoxalmasıdır. Bildiyiniz kimi, Azərbaycanda ixracatçılara böyük dövlət dəstəyi var, ölkədən kənara mal satmaq istəyənlərə hər cür şərait yaradılır. Buna görə də istehsal olunan məhsulun böyük hissəsi xaricə aparılır, bu isə daxildə qiymətləri yüksəldir".

**Öz növbəsində iqtisadçı-ekspert Natiq Cəfərli adətən Azərbaycanda meyvə-tərəvəzin qiymətinə mövsümi amillərin təsir göstərdiyini dedi:** "Hər il yaz-payız mövsümündə qiymətlər ucuzlaşır, qışda isə istehsalın azalması ilə qiymətlər də bahalaşır. Bu amildən başqa qiymətlərə təsir göstərən əsas amil ixracatın artım dinamikası ilə istehsalın artım dinamikası arasında xeyli fərqin olmasıdır. Ötən ilin yekunlarına görə, kənd təsərrüfatında 3 faizdən yuxarı artım qeydə alınıb. Bu, müsbət bir haldır. Lakin ötən il kənd təsərrüfatı məhsullarının, xüsusilə də meyvə-tərəvəzin ixracında bundan bir neçə dəfə çox artım baş verib. Bu da ondan irəli gəlir ki, dövlət ölkəyə valyuta gəlişini artırmaq üçün ixracatı stimullaşdırır. Nəticədə ixraca yönələn meyvə-tərəvəz daxili bazardan çəkilir. Üstəlik, istehsalçı ixracatdan əldə etdiyi gəliri daxili bazardan da əldə etməyə çalışır. Daxili bazarda məhsulun az olması isə istehsalçının bu istəyini reallaşdırması üçün əlverişli zəmin yaradır. Buna görə də daxili bazarda qiymətlərin aşağı düşməsinə nail olmağın əsas yolu istehsalın daha böyük sürətlə artmasıdır. Bunun üçünsə Azərbaycanda istehsalçıların son məhsula görə subsidiyalaşmasına keçilməlidir. Bildiyiniz kimi, ölkədə əsasən dövlət subsidiyası əkin sahələrinə görə verilir. Bu isə kəndli-fermerlərdə son məhsula marağı azaldır".

**Ekspertin sözlərinə görə, daxili qiymətlərin yüksək olmasında bazarlardakı inhisarlaşma da mühüm rol oynayır:** "Alverçilik hələ sovet dövründə də mövcud idi. O zaman da bunun qarşısını tam almaq mümkün olmurdu. İndi də bazarlarda istehsalçı ilə istehlakçı arasında vasitəçilər var. Bu kiçik qrup fermerlərin birbaşa bazara çıxışını əngəlləyərək, arada böyük gəlirlər əldə edir. Buna görə də hökumət fermerlərin bazara birbaşa çıxış imkanlarını genişləndirmək üçün tədbirlər görməlidir".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 30 (6919) 8 fevral 2018



# Amerikalı lotereyada uddüğu 560 milyondan imtina etdi

Amerikadakı "Powerball" adlı lotereyanın qalibi 560 milyon dollar qazansa da, qazandığı mükafatdan imtina edib. Bu haqda "The Washington Post" qəzeti xəbər verib. Qadın məhkəmə vasitəsilə uduşunu anonim qaydada əldə etmək hüququ qazanmaq istəyir. Məhkəmə sənədlərində qadın özünü Ceyn Dou olaraq adlandırıb. O qorxur ki, onun bu cür qəfil varlanması barədə bütün şəhər sakinləri, o cümlədən də dələduzlar xəbər tutacaqlar. "O, qorxmadan, narahatçılıq keçirmədən bazarlıq etməyi, şəhərdəki tədbirlərə baş çəkməyi arzulayır. İnsanların onun varlanması barədə məlumatlı olmasını istəmir". Bunu da vəkil deyib.

Bununla yanaşı, nəşr xəbər verir ki, lotereyanın təşkilatçıları üçün qalibin elan edilməsi bir tərəfdən dələduzluğun qarşısını alır, digər tərəfdən, güclü marketinq üsuludur. Sonuncu oyunun amerikanlar arasında populyarlaşdırma üsuludur. Nyu-Qempşir qanunlarına görə, qalibin adı, şəhəri və udduğu məbləğ dərc olunmalıdır.

Hazırda qadın artıq udduğu biletə qol çəkib. Amma imzasını dəyişdirdiyi üçün özünü gizləmə haqqı qazanıb.

# Qadınları hipnoz yolu ilə qarət edir



Türkiyənin Adana şəhərində qəribə bir oğru tapılıb. Alış-veriş mərkəzlərində gənc qadınların və qızların çantalarını, pul qablarını oğurlayan 37 yaşlı A.T adlı vətəndaş polis tərəfindən yaxalanıb. Oğru polisə ilk ifadəsində bildirib ki, onun bu əməlini oğurluq adlandırmaq haqsızlıqdır. Çünki o, insanları inandıraraq pullarını alıb. Zərərçəkən qismində ifadə verən qadınlar isə bildiriblər ki, A.T onların çantasını oğurlayıb qaçmayıb. Heç zorla pul qablarını da götürməyib: "O, bizimlə tanış olandan sonra şirin-şirin söhbət edirdi. Telefon nömrəsini verirdi, bizim nömrəmizi alırdı və zəngləşib görüşəcəyimizi deyirdi. Amma o gedəndən sonra mən və rəfiqəm hiss etdik ki, çantamızdakı bütün pullarımız oğurlanıb". Bunu G.P adlı zərərçəkən qadın deyib.

Oğru isə bildirib ki, qadınlardan zorla heç nə almayıb, onlar könüllü şəkildə ona pullarını və zinyət əşyalarını veriblər: "Mən istedadlı bir hipnozçuyam. Bu isə suç deyil".

# Akula çəkənləri 6.2 min dollar cərimələdilər

**Braziliyada videoçəkiliş etmək üçün sudan akula çıxaran turistlər cərimələniblər. Bu barədə "The Daily Mirror" nəşri xəbər verib. Cərimənin məbləği isə 6.2 min dollar müəyyən edilib.**

Nəşrin yazdığına görə, turistlər akulanı Pernambuku ştatındakı Fernandu-di-Noronya sahilindən çıxarıblar. Baxmayaraq ki, sahildə dəniz heyvanlarını yaxalamaq, öldürmək, yedizdirmək və ümumiyyətlə narahat etməklə bağlı qadağa lövhəsi yer almışdı. Əlində sudan çıxarılmış akulanı tutan 35 yaşlı qadının çəkdirdiyi video 7 fevral tarixində sosial şəbəkədə yayılıb. Çəkilişi onun sevgilisi edib. 6.2 min dollarlıq cəriməni isə bu hərəkətə edən hər bir komanda üzvü ödəyəcək. Bu, heyvanlarla amansız davranışa görə kəsilmiş cəzadır. Bundan başqa, sosial şəbəkədə yayılan video neqativ etirazlara səbəb olub. Sosial şəbəkə istifadəçiləri ümid ediblər ki, turistlərin bu ədəbsiz davranışı cavabsız qalmayacaq və başqalarına da dərs olacaq.

2016-cı ilin fevralında da Argentinada delfinlə şelfi çəkdirmək üçün ona əzab verən şəxslərlə bağlı xəbər yayılmışdı. Sözügedən insident Buenos Ayresdə yerləşən Santa Teresita kurortuna baş vermişdi.





# Pul saymaq insan sağlamlığı üçün faydalı imiş

Minessota Universiteti (ABŞ) alimləri pul saymağın insanın sağlamlığına və əhvalına olan təsirini araşdırıblar. Araşdırmalar pul saymağın stresi azaltdığını, əhvalı və beyin qan dövranını yaxşılaşdırdığını təsdiqləyib. Araşdırma göstərib ki, pul saymaq stressi azaldır, əhvalı və beyin qan dövranını yaxşılaşdırır.

Söhbət həm kağız puldan, həm də xırda puldan gedir. Bunun sadə elmi izahı var - barmaqların kiçik motorikası (barmaqların hərəkətləri) beyinin fəaliyyətinə müsbət təsir edir, onu stimullaşdırır.

Lakin həkimlər xəbərdarlıq edir - pul ən çirkli "əşya"lardan biri sayılır. Araşdırmalar göstərib ki, pulların üzərində 200-ə (!) qədər müxtəlif ziyanlı mikrob ola bilər.




QOÇ - Şəxsi həyatınızda önəmli dəyişikliklər etmək istəyirsinizsə, bu gündən maksimum bəhrələnin. Aldığınız təklifləri düşünmədən rədd etməyin. Axşam təzə xəbərlər gözlənilir.

BUĞA - Bu təqvimi bürcünüz üçün həftənin ən düşərli günü kimi dəyərləndirmək olar. Ələlxüsus da əməkdaşlıq zəminində uğurlu məqamlarla rastlaşacaqsınız. Sizə aid olmayan işlərə müdaxilə etməyin.

ƏKİZLƏR - Risk etməkdən qorxmayın. Amma bilin ki, bu riski hansı məqsəd uğrunda edirsiniz. Başınızı qoruyun. Ulduzların düzümü şəxsi büdcənizdə müəyyən artımların olacağını bəyan edir.

XƏRÇƏNG - Bir qədər gərgin gündür. Özünüzü istənilən təzyiq və təhlükələrdən qorumalısınız. Haqqınızın tapdanmasına yol verməyin. Yeri gəlsə, bu istiqamətdə sərt mövqe də nümayiş etdirin.

ŞİR - Maddi firavanlığa qovuşmaq üçün geniş imkanlarınız var. Boş oturmağa çalışmayın. Pul qoxusu gələn istənilən ünvana və şəxsə müraciət edin. Qeybətcil adamlardan uzaq olun.

QIZ - Astroloji göstəricilər nə qədər yeni simalarla rastlaşsanız, bir o qədər nailiyyət qazanacağınızı bəyan edir. Əgər işlə bağlı məşğul deyilsinizsə, axşam mütləq qonaq gedin.

TƏRƏZİ - İxtiyarınızda olan bu təqvimdə daha çox səhhətinizə fikir verməyinizə ehtiyac var. Nahardan sonra isə işgüzar sövdələşmələrə başlamaq, yeni əlaqələr yaratmaq xeyirlidir.

ƏQRƏB - Məqsədlərinizi reallaşdırmaqda tənbəllik edirsiniz. Bu isə Göy qübbəsinin xoşuna gəlmir. Özünüzdə təpər tapın. Başqalarına bel bağlamayın. Çünki bu dövranda heç nə boş-boşuna əmələ gəlmir.

OXATAN - Sevgi münasibətlərində bir qədər anlaşılmazlıqlar mümkündür. Çalışın ki, bu amil mübahisə həddinə çatmasın. Səhvlərinizi etiraf etməyi bacarın. Bunun sizə yalnız xeyri dəyə bilər.

OĞLAQ - Müntəzəm surətdə rastlaşdığınız şəxslərlə davranışlarınıza fikir verin. Özünüzü mehriban aparın. Qabiliyyətsiz adamlarla ünsiyyəti səngidin. Varlanmaq üçün imkan qazanacaqsınız.

SUTÖKƏN - Ailə zəminində müəyyən xoşagəlməzliklər gözlənilsə də, bu, yalnız günün birinci yarısını əhatə edəcək. Nahardan sonra isə xoş təsadüflərlə rastlaşacaqsınız. Axşam qonaq getməyə çalışın.

BALIQLAR - Təzadlı bir gün yaşayacağınız gözlənilir. Ulduzlar sizə qarşı bir neçə istiqamətdən təzyiqlər olacağını, həmçinin perspektivli təkliflər alacağınızı bildirir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Balıqçı toruna balıq yox, 700 kiloluq dana düşdü



Türkiyənin Kocaeli şəhərinin Kandıra bölgəsində balıq tutmaq üçün Qaradənizə qayıqla çıxan balıqçıların toruna 700 kiloluq dana düşüb. Əli Koç və Dəniz Koç adlı balıqçılar Qaradəniz sahillərində torlarını ataraq qənimət gözləməyə başlayıblar. Bir müddət sonra torun dartıldığın görən qardaşlar sevinib. 112 metr dərinlikdən çıxarılan tora 700 kiloluq dananın "ilişməsi" isə onları xeyli təəccübləndirib. Balıqçılar təxmin edirlər ki, bu dana ölkə xaricindən idxal edilən heyvanları daşıyan gəmilərin birində olub və öldüyü üçün onu dənizə atıblar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100